## Roman Üz-ər-in-də:

Öykülərimi iç içə,
ön önə yazdığımda,
onları qarşı qarşıya sıralamağı da unudmamağa çalışdım.
Sıraların ritmlərinin taymını isə,
öz ürəyimin vuruşuyla ölçdüyümdə,
dönə dönə "O"nu anımsayaraq özlədim.
Sıraboyutlarındakı ortamı çeşitləndirdiyim isə,
sanırılmaz bir dəliliküstü'dən qaynaqlandı.
Öykülərin bitiş çıxış uclarını,
hərəkətlər geçişiylə qatlayıb kəsdiyim,
ərginliyə yaxlaşımdan oluşdu.
İncə, sərt, sinirli, sevdalı, saldırqan, nazlı,
dəliso...
çıxış giriş vuruşlarını biçimləndirməkdə mən,
atmosfer boyutlarıyla gənəl boyutların bağlantı boyutları
arasındakı ayrıntılarını yaşata bilməyim üçün,
yeni bir biçimə ərəsiydim.
Romanımın dili isə,
arınmış Azərbaycan türkcəsidir umaram.
*17. 05. 2000 Vali Gözətən*

# 1

**O** işotağında, çuxur gözlərini kitabrəfinə tikib, baxışıyla bir kitabın adını pozur. çəkəcəkləri bir filmi düşünmək istəsə də, "Bir qadının sevişməkdən aldığı həzzin necəliyi" düşündüyünü ona unutdurur. Baxışları kitabrəfində qala qalır. İndi o, haçan kitabrəfindən gözlərini aldığını belə anımsayabilməyir! Onu düşündükcə, beyni güclənir. Pəncərəyə baxır. Yenə dönüb kitabrəfinə baxaraq, düşüncələrinə dalır. Günlər boyudur, bu otaqda dolaşıb, donmuş bəlləyiylə uğraşır. Çeşitli sanrılardan qaçmağı başarmaq üçün, öz özüylə danışır:

- "Nə etmək istəyirdim? Hə...! Kitabmı oxuyacaqdım? Yox! Gözlərim ağrıyır. Beynim qaynayır! Gözlərimdə sözcüklər, bir-birinə bulaşır. Bulaşdıqca da, beynimi kitabla həzləndirməyə zorlanıram! Həz alabiləcəyim bir kitabım olmalıdır bir yerlərdə. Görəsən, indi "o" hardadır? Onun adı nəydi? Nəysə!" - deyə, pəncərəyə yaxınlaşır. Evinin önündəki ağacları görüncə, nədənsə bir ağac olacağını sanır:

- "Nədir Ağac...?"

- "Pəncərə, qapı, ağac... dolab...!"

- "Haçan dolab bir ağacmış daha! Dolabım, qapım, pəncərəm yarpaqsız ağaclarımmı mənim? çox modernmi oldum indi? ha haa haaa haaaa haaaaa!" - gülünc də olmasa, ürəkdən gülür. Alnını pəncərə camının soyuqluğuna dayadığında, "Soyuq, əmmə, göz, yumuq, dinc, çalıq!" - sözcükləri bəlləyində qıdıqlaşır. Onların varlığına maraqlanır

sanıram. Sözcüklərin eşikdəki nəsnələrlə ilişkiləri onun beynində qarışmış:

- "Onlar, ilkbaşda Hardaydılar?" - soruşaraq, pəncərənin sağındakı balkon qapısını açır. Beynində bir "o" dönə-dönə, başqa sözcükləri qıdıqlamağa çalışır. "Balkona əsən yelin əsməsindən anımsanmış "sərin" sözcüyünü tapınca:

- "İlkbaşda o, sərini əmməklənmi özünü əmməyə alışdırmışdı? Ox! Sərin yelmi əsir? Onun qoxusunu burnumda saxlayabilseydim! Görəsən indi "o" haradadır? "O", ağacın anası kimiydi." - deyə, balkonun barmaqlığına doğru əyilərək, sağ əlini dəmir barmaqlığa sürdürür. Beynindəki "o"lardan danışır:

- "O, yanıma gəlmədən telefon eləməzdi! Dəmir, bu ağacdan sərt olduğu kimi, mən onunla qarşılaşdığımda, sərt olardım! O mənə, "Bir ağacın dolablaşmasını, qapılaşmasını, pəncərələşməsini düşünsən, dəmirin yumuşaqlığını qanarsan gülüm! söyləmişdi biryol."

- O, özünü düşünürcəsinə, yenə ağac-dəmiri düşünür. Otağına baxaraq, dəmir barmaqlığa söykənir. Onun ıslaqlığı ovucunun isti təriylə qarışdığında:

- "Mən indi bəbəkliyimdəki iliklərin lığını duymaqdayam! Onların lıqlarını indi mən anımsayıram? O, "Hər nəsnənin iliyi olduğu kimi, hər iliyin də lığı var...!" söyləmişdi mənə. Onda Mən, onun ağacanası olduğunu duyduğumda, dəmirin ağacın lığından olduğunu qanmamışdım daha! Bax! İndi mən onun lığını ovucumda belə görəbilirəm. Ona ağacın yumuşaq, isti lığından ovucumda bir heykəl yonmaq istəyirəm. Lığı ancaq necə yonacağam? Şişirməliyəm, deye

düşünürəm. Şişirməyə başlayıram. Şişirdərək, onu köpürdürəm. Uzunboylu, incə belli, uzun barmaqlı... bir köpük olanacan şişirdirəm. Ona çəkik qaş, qara göz, yastı bir burun, şəhvətso dodaqlar çizirəm. İçinə baxıram. Bomboşdur içi. Lıqköpüyüdür o! Barmağımla, qarnının ortasında bir göbək çizmək istədiyimdə, lıqköpüyüm barmağımda partlayıb, lığı barmaqlarımın arasına axa axa, ovucuma damlayır. Ovucumda onun isti lığı, otağıma baxıram. O yoxdur artıq bu otaqda. Dolablar içimi sıxırlar. Bu nə? Mən hardayam? Balkon, ağac, ev, başımın üstündə göy, ulduzlar, beynimdəki ağac, dəmir, qapı, o, o'lar... Nə olur mənə?“ - dərin bir nəfəs alaraq, dönür yenə ulduzlara baxır:

-“Ah! Yağış...! Mən...beynimin içindəkilərəm! Ancaq onun unudulmuş, görünməz yönünü də görmək istəyirəm. Yalnız yönümü? Üzü, ardı, önü, ötəsi... də varmıdır daha? Onu görmək üçün, nələr etməliyəm? Artıq mənim beynim qızışır. Onu qanmamağa, duymamağa başlayıram. Üzü, ardı, ötəni, yönü burax! Mən, geçmiş, beyin, axtarış, başqa biri, öz itirmə... Məndən danış! Mən dəmirəm! Ağacı mən utmuşam. Onu ötmüşəm! Mənə nə olur? Məni birisi utub, ötməkmi istəyir? Bu ev kimindir? Mən burada nə edirəm...?” -deyə, balkonun önündəki ağacları sayır. Balkon pəncərəsinə döndüyündə, pəncərə camındakı ışıqda, üz-gözünü görürəm. Qandolu çanaq kimi görünən gözləri, dolqundur yuxudan. Yuxumu? Yox, yox! Düş, yuxu, qarabasma beynində qarışır, qaynaşır, qıvrışırlar! Onların üz-gözləri, kimliksizləşən iki gözə bənzəyir! Nədənsə, yağışlı bir gecə, onun bir otubusdan enib, sevgilisinin evinə doğru qaçdığını anımsayıram. Onu

pəncərəcamında təkbaşına buraxıram. Bir saat öncə yazdıqlarını oxumaq istəyirəm. O artıq donmuş bir geçmiş deyil sanıram. İndi, balkonun önündəki ağacları qaralayıbdır. Yel ağacların dallarını sağa sola sallandırır. Dallar balkona dırmaşılır. Şapbadan balkon pəncərəsinin camındakı kölgəsini gördükdə, "Soyuqdur quzum, içəri girmək istəməzmisən?" -birinin danışdığını sanır. Ona cavab verirmişcəsinə onunla danışır:

- "Quzummu? Beynimdə uzaq bir xatirədir o! Quzu, dəmirdən də sərtdir gülüm! Acalarsa, ağacın gövdəsini belə, gəmirər!"

- Küçədən bir motorsiklet geçir.

- "Motorsiklet qıcıltısından başqa, bir səsmi eşidirəm?" - soruşaraq, dönüb otağa baxır. Nə düşünmüşsə, otağa girir. Yataq otağında birinin uzandığını sanır. Dörd il öncəki yaşadıqları, kəsik-kəsik gözünün önündə qaçışırlar. Uğrun-uğrun yatağına baxır:

- "Nə olur mənə? Beyin çarpıntıyla, qulaq ötməklə oluşur, deyəsən! Görəsən gözlərimin sürətinə nə olubdur?" - acıqlıcasına yataq otağının qapısını itələdiyində, qapının paslanmış bağlacları cırıllayır. "Balkon qapısını örtəbilərmisən gülüm?" yataqda uzananın danışdığını eşitdiyində, barmağını havaya tovlaya-tovlaya:

- "Bax bir! Məni sən qandırabilməzsən! Sən yoxsan! Sən bir lıqköpüyüsən. Var olan mənəm! Mən sənin dölünün lığızlığını; ağac, su, dəmir, torpaqdan çəkdirdim! Sən, Mənmisən? Hansı dildə danışırsan? Məndən nə istəyirsən?

Dəmir, ağac deyil! Dəmir dəmirdir! Onun içində sevgi olsa da, görünməz qızım! Lığızdır o daha!"

- Onun içində başqa birinin olduğunu düşünərək, "Dəlirəcəkmi indi?" özümdən soruşuram.

- O, dönə-dönə baxışlarını balkon qapısından yatağa, yataqdan balkon qapısına gəzdirir. Gözlərinin ərimədə olmadığına ınanmaq istəyirəm! Kipriklərini o, göyərçin qanadları kimi çırpdırmağa çalışır:

- "Kipriklərim gözlərimi uçurabilərmi? Məndən öncə, uçağanlıqmı varmış?" - deyə, sevinir. Sevincini göylərdə də görmək istərcəsinə, göyə baxdığımda, gözlərim balkon qapısına sataşır. Yel balkon qapısını açıbdır. Asfalt üstündə sürünən yarpaqların xışıltısı, uçuş ötüşünü andırır mənə.

O, balkon qapısına yaxınlaşır. Düşünür görünür. Ucadan danışmağa başlayır:

- "Mən əskidən burada yaşamayırdım. Hə! O qız. O kitaba nə oldu? Buraxıb, qaçdımmı? Yoxsa... Hardadır indi o? Niyə mən geçmişimi unutmuşam? Kimdi o qız?" - hansı qızı düşündüyünü ayırt edəbilməyirəm. Sol əlini cebinə soxub, obir əliylə alnının sağ solunu ovxalayır. Yazdıqlarını mizinin üstündən götürüb, oxumağa başlayıram:

## A

O qız, Marağanınmı kəndlərində idi? Qoca-qarılar, gəlinlər, gəlinlərin qucağında körpələr... Onlar! O! Hə, o qız! Eşşək-dəvələr, yüklər... Hara gedirdilər? Aşıq Quyu da içlərində idi!

- "Xanəmi, hara gedirsiz?" - soruşduğumda:

- "Mən bir atlıqarınçağa! Atılıb mindim çılpaq ona! Mən... hə, sürdüm təpəyə, dağa, dərəyə, düzə! Törənməmişdi daha qarınçağa! Mən... hə, o gündən bəri, çılpaq minərəm... Xoruz əti yeyər məni... Mən... hə, ceyran olar, doğar məni bir gülüşü, sayrı düşər kənddə quzu körpənin biri, məni görüncə, gülüşümü gülər-gülməz sağalar o:

- "Quyuxan əmi, deyər körpə qızım, "Tanyıgöyül sənsən!"

- "Mən... hə! Mən, hə.... Aşıq Quyuyam! -söylərəm quzuma ...! 00. 07 1993 Köln"

## B

O qızın adı nədir...? Nəydi? Bir gecə, yaz yeli küçələrə əsirmiş sanıram. Ay, zolaqlarını qızın pəncərəsindən yatağına saçırmış. Qaranlıqda zolaqlar, Aşıq Quyunun ötüşlərini şütüşürlərmiş, sankı! -Onda mən qızın solunda uzanmışdım.- Qız yuxusunda bir yuxu görürmüş. Bir dərənin qocaman uçurumuna baxırmış. Mən də, yuxusunda onu çağırırmışam. Ancaq qız, səsimi eşitməyirmiş. Onun böyükbabası Tozraq, uçurumdan uçmaq istəyirmiş. Qız isə, dərənin dibində körpələrini otararaq, böyükbabasını gördüyündə, "özümüzdənyeylər!" - deyə, çığırmış! Çığırtısını böyükbabası eşitməmişcəsinə, günəşə doğru uçmağa başlamış. Uça-uça, günəşin ışığına süzülüb, görünməz olmuş. Qızın sarı köpəyi günəşə sarı ulamış. Körpələri göyə baxmış. Buludlar günəşə doğru üzmüş, şimşekler şaxmış, yağış yağmağa başlamış..."

Qızın yuxudan ayıldığını sandığımda, uzandığım yerdən qızın sağına aşaraq, yorğanı üstünə çəkdim. Gövdəsini tər basmışdı. Üşüyəcəyindən qorxurdum. O, gözlərini açıb, yorğanı üstündən yana çəkdi. Yuxusunda onu çağırdığımı eşitmişcəsinə gözlərimə baxdı. Mənimlə danışmağa çalışırdı sanıram. Mən ancaq, təkcə dodaqlarının tərpənməsini görəbilirdim. Onun sözlərini eşitmək istəyirdim. O, şapbadan durub oturdu. Böyükbabası kimi bağdaş bağladı! "Yenəmi yuxu görür?" -deye, özümdən sordum. O isə gözlərini yumdu. İçi ışıqlanırmışcasına üzü parlayırdı. Böyükbabası qapının arasından göyə baxaraq, onunla danışırdı:

- Qancıçən ətəyi ənik atlar otlağıdır qızım! O atların arasında Mavçəkgöz adlı bir at var! Dörd dizləri ağ, gözləri yeddi boyaya çalar. Dörd ildən bir Dirkəl ulduzu batarkən, gözlərinin boyası yox olar! Dirkəl ulduzu batandan günəş doğanacan, görməz olar. Günəş doğarsa, kimsə onun yaxınlığına belə gedəməz. Mavçəkgözün anası, Soğur dağlarında dədə Dumruq qulluğundadır. Dədə Dumruq isə, Soğurda yaşar.

- Onu necə tanıyacağam?

- Mavçəkgözün anası Aycığrılı tapmalısan! Gecələr o, Lazqır uçurumunda Mavçəyini gözlər! Sizi o, Lazqır uçurumundan, dədə Dumruğa götürər! Dədə Dumruq, "Qızım, Lazqır uçurumundan kimsə geçmədi. Soğur dağlarını kimsə aşmadı. Cığrılımı kişnətdirən olmadı. Kim səni mənə göndərmiş?" - söylərsə, sən Ceyrandan alacağın qurşağı ona görsədəcəksən!

- Hansı qurşağı?

- O qurşağın adı Sarğındır. Ceyrandan onu istəyəcəksən! - deyib, qapının arasından ulduzlu göyə baxdı. Qız, onun sol əlini əllərinə aldı. Əlləri daha istiydi. Gözlərinə baxdı qız. Gözlərinin dərinliyində, göydəki yeni doğmuş ulduzlar parlayırdı...

Qız, dərədə körpələrini otarırmışcasına, uçuruma doğru uçmaq istədiyində, yorğanın ucundan yapışaraq, ayağa qalxdı. Onun düşəcəyindən qorxduğum üçün, əlini tutmağa çalışdım. Əlim sərinlədi. O, yenə yuxularına dalırdı sanıram...

30. 09. 1993 Zəncan

Onun yazılarını yenidən mizinin üstünə atıram. İllər öncə yazdığı dədə Dumruq, beyninin hansı bucaq çəkməcələrindən çıxmışsa, anlayamıram! "Unutduğu qıza bir dönüşdürmü bu yazılar? Onumu anımsamaq istəyir?" - soruşuram özümdən. O isə, balkonda tütün eşə-eşə, öz-özünə danışır:

- Tütün olabilsəm belə, törəniş gələcəyində döllənərəm! Bu, mən deyiləm. Mənim axtardığım nə dədə Dumruq, nə də mən, dədə Tozraqam! Nə Qancıçəndə, nə də Soğurdayam! Torpağımı unutmuşsam da, hardaysa, varam! Yaşayıram! Düşmü düşünürəm? O qızımı beynimdə axtarıram? Kim, nə, harda olduğumu anımsamağa çalışıram! Unutduğum çağlardakı Mən, özünə görə, görünməz başqa bir mənmi oluşdurmuşdu? Adımı belə unutmuş olsam da, bilmədiyim hər hansı bir adın yiyəsi olduğuma arxayınam!

## 2

**O**, artıq balkondan işotağına dönmüş. Sigaretinin kötüyünü külqabıda əzir. Sağ əliylə kürəyini qaşıyaraq, sol əliylə dirsəyini oxşayır. Bir şeylər xatırlamışcasına danışır:

- O qızın dirsəyi, bir yerlərdə söykəndirilirdi bir yerlərə! Hansı çağdaydık? Mən indi, bir qayıdış öyküsünümü yaşayıram? Unutduqlarımı anımsamaqmı zorundayam?

Otağın giriş qapısına doğru yeriyir:

- Mənim... adım. Hə! Adım nədir? Adsız bir nəsnə bəlləyə yazılmadan, anılınmaz! Adım olsun da, qaraya boyansın! Onun üçün də, Oxçay deyib, özümə bir ad qazanmalıyam! Hə! çay oluşmadan, Oxçay gözəl bir admış! Geçmişi mən buraxmalıyam! İndi Oxçayın işotağındayam. Bu otağın geçmişi olmasa belə, azından bir indiliyi vardır. O indilik nədir? Onun görünüşümü? - otağına göz gəzdirərək:

- Bu otağın giriş qapısından bir qara, bir sarı ipək köynək asılıbdır. Onların qolları çiyinlərindən kəsilibdir. Bir ip qara köynəyin sol çiynindən sarı köynəyin sağ çiyninə geçirilib, yaxasından uzadılaraq, qapının çərçivəsinə mıxlanıbdır. Giriş qapının qarşısında gözükən pəncərədən, otağın sağında qoyulan mizin üstündəki Alma markalı bilgisayarın monitoruna, güney ışığı saçılır. Kağaz, qələm, külqabı, tütün, kitab, qəhvə, dırnaqkəsən, prezervativ, məktub... qarma-qarışıq, düzənsiz mizin üstündə tökünükdür... - anlatmaqdan yorulur. Bir tütün daha eşərək, yenə öz-özüylə ucadan danışır:

- Demək, mən Oxçayam! Burada yaşayıram! Varam! - gülür. Gözləri sevincdən parlayır. Giriş qapını açıb, eşiyə baxmadan, qapadır. Dönüb danışaraq, pəncərəyə doğru yeriyir:

- Oxçay adlandırdığım mən, gecə-gündüz qulluğumda olacaqdır! Eşmək, dil, yapışqan, yalamaq, tüpürcək, ıslanmagücü, 11.ci barmağı çürütdürmək, onun dodağını anımsamaq, onu tapıb, düşünə girmək, istəklərinə alışmaq... Şermi yazıram indi mən? - otağın ortasında, bir anlıq duruxsayır.

- Hə...! Zındandan yazmaq. Hə! Lap yaxçı olar. Beləsinə özümün geçmişimi anımsayabilərəm... Hansı zından? Harda? Niyə? - susur. Pəncərəyə yaxın durur. Gözləri durğunlaşır. Baxışları baxdığı yerdən uzaqlaşır:

- Nə isə, yazmalıyam! Ancaq zındandan yazmağı boş ver! Zındanın nəyindən yazacağam? Reportajcı deyiləm ki! Onu belə döydülər, obirini elə sürütdədilər, mənə şok verdilər...! - dönüb, mutbax mizindən qəhvə filaksını götürüb, fincanına qəhvə süzür. Üstünə buzdolabından çıxardığı sütdən calayır:

- Bu acı qəhvəni iç! Zından-mındandan qorxma! Yaz! Özünü tapmaq üçün yazırsan. Beyninə nə olmuş sənin? "Nə yazım?"dan danışma. Yaz! - qəhvəsini içə-içə, barmaqlarını sanır. Gövdəsini gəvşətməyə çalışır. Dilinin ucunda bir bölcüyü təkrarlayır:

- "S... "S... "S... "S..." - nədənsə, əlləri titrəməyə başlayır. Dodaqları gülür. Ucadan gülərək, əllərini gəvşətməyi başarır:

- "S...mı"! Nədən unutdum! Mən özüm...? Hə! Nədən "S" bəy məni qandırıb da, "S"yı mənim bəlləyimə unutdurmaq

istədi? Söylə baxım, bilirsənmi nədən "S" yazdım? Məni tapmaq üçünmü? Bax! İndi onu tapdım. O "S"dır. Bir də səni tapdım. "S" bəylə oturub, danışaram; sən yazıq da, yazmalısan artıq! Darıxma! Səninlə də ara-sıra danışaram. Bir də gördün "S" bəy yazır; səninlə mən danışırıq. Oldumu?

"Bilirsən "S" kimdir? Mənim Sadıq adlı bir tay-tuşumdu o. Qara, çəkik, yay kimi qaşları, dana gözləri, enli kürəyi vardı. Özü də, kongfonu çox sevərdi. Atasından ancaq gizli kongfo öyrənmişdi. Atası mallaydı. Bir atasından, bir də hamamdan danışanda, çox acıqlanardı. Haçan atasından danışardısa, hamamı da unudmazdı. Bir yol hamamdan, atasından danışarikən, "Pislik etmək, pisliyi düşünməkdən daha yaxçıdır!" - söylədiyində:

- "Anlamadım, necə?" - soruşdum ondan.

- "Mən hamama gedəndə, atamın acığından kəfləmə çəkərəm. Bilirsən niyə? Atamın pisliyi düşünməsindən ötürü. Pisliyi düşünmək istəməm. Atamın beyni fosil kimidir. Gecələr o, namazdan, orucdan, ınançdan, günah işlərdən danışandan sonra, "Gedin uşaqlar yatın! Səhər namazına ayılmazsız, namazız qəziyə gedər!" deyər bizə. Bir sözü, gecə-gündüz saqqız kimi çeynər. Min yol kəfləmə çəkməyin pisliyindən danışar; yenə də doymaz. Cümə axşamları kəfləmə çəkməkdən söz edərkən, özünün də üz-bənizi dəyişər. Səsi biraz yumuşalar. Səsi yumuşalan axşam, səhərəcən yatabilmərəm mən. Səhər hamamda, baş-qulağımı sabunlayıb, tələsik bir kəfləmə çəkmək zorunda olaram. Ağamın səsini hamamda, "Sadıq ağa! Bə nə oldu? Tez elə! Namaz vəxdi sovuşdu!" eşidər-eşitməz hamamdan çıxıb,

ağamın dalınca namaza duraram. Səcdeye diz çökdüyümdə, kəfləmənin ləzzətindən titrəyən dizlərim, elə bir rahatlar ki, gəl görəsən!"

Mən də, deyəsən ki, bu sözləri ilk yoldur Sadıqdan eşidirəm, dərin bir maraqla onu dinlərdim. Atasının acığından bir yol, şumbulunun börkçəsini kəsdiyini belə, mənə söyləmişdi Sadıq!

- "Boş ver Sadıq! Sənin atanla nə işin var? O da biz yaşdaykən, kəfləmə çəkərmiş. - deyərdim ona.

- ...

"Ah! İndi Sadıq burada olaydı. O ancaq burada yoxdur. Orada da yoxdur. O heç yerdə yoxdur. Heç yerdə olmayacaqdır. O təkcə yuxularda, dolaşa yaşayacaqdır! İndi o hardan çıxıb, oynadı bəlləyimdə? Onun burada yaşadığınımı anımsadım? Yox, yox! O oradaydı. Bir axşam yeməyində, o boşqabındakı düyünün üstünə mürəbba töküb, yeyirdi. Onun düyü-mürəbba yeməsi, Abadanın Yedditəpə xurmalığında yediyim düyümeygoları xatırlatdı mənə. Düyü meygo qoxusu, xurma ağacları, gəlin Hüşəng, qoxumuş leşlər...burnumu qıdıqladı. Yeməyimi yarımçılıq buraxıb:

- "çay içən varmı?" - soruşaraq, qalxmaq istədiyimdə:

- "Boş ver, sonra çay qoyarıq. Səninlə danışmaq istəyirəm." - dedi Sadıq.

- "Bir şeymi var?"

- "Bir şey yox... !"

- "Darıxırmısan?"

Ötəri bir baxışla məni sezdi Sadıq:

- "Yox, yox! Dünən gecə yuxu gördüm."

- "Xeyir olsun! Nə gördün?"

- "Anam ilə atamı yuxuda gördüm."

- "Eləmi?"

- "Yuxuda... evimizin üstündə uçurdum. Qonşularımız, dambaşından, pəncərədən, qapı arasından mənə baxırdılar. Bizim qapımız bağlıydı. Evimizdən ağlaşma səsi eşidilirdi. Bir arvad ağlayırdı. Anamın səsiydi. Birdən-birə qapımız açıldı. Qonşularımız anama baxmayırdılar. Onlar mənim uçmağıma çaş-baş qalmışdılar. Qurumuşdular! Yüksəklikdən baxanda, heykəllər kimi gözükürdülər. Qapımız açılar-açılmaz, anam eşiyə atıldı.

Əllərini mənə doğru uzadıb, ağlayaraq, çığırırdı:

- "Getmə bala! Nənən ölsün bala! Bilirdim sənin başıva bu işlər gələcax! Başarammadım dədəvinən! Axir səni qurbannıx verdi! Atasına nəhlət olsun!" -Onun ardından, atamın sarığı başında, zincirdən hörülmüş bir aba əynində, eşiyə çıxdı. Abasının zincirləri elə qaraydi ki, pası görünməyirdi. Ancaq mən abanın pasını görürdüm. Bunu atam bilə-bilə, mənə baxırdı. Anam isə, saçlarını elə yolur, paltarını cırıq-cırıq edir, ağ məmələrini dırnaqlarıyla cırmaqlayırdı ki, gözlərim çanağında yanıb, əriyir, qaynar suymuşcasına yanaqlarımı yandıra-yandıra, çənəmdən damlayırdı.

Bir də baxdım, anam çılpaq qollarını ağ tavuz qanadları kimi göylərə açmış, ardımca uçaraq, palanqəcir quşutək ciyərdən ötə-ötə çığırırdı. Mən isə, evimizin üstündə süzülüb,

uçmaqdaydım. Qonşularımız, daşdan heykəllər kimi, mənlə anamla atama baxırdılar. Bizim səsimizi eşitməyirdilər.

"Şapbadan atam gözlərimi gözləriylə tuşlayaraq, ucadan bağırdı. Bağırışı göylərə qalxdı. Göylərdə fırlanıb, yer üzünə sarı fırlana-fırlana, yenə göyə dönərək, mənə doğru burulub, qulaqlarımda partladı. Bir an sürmədən, gözlərim portlandı havaya. Ancaq heç yerim ağrımadı. Gözlərim görürdü daha. Birdən-birə yuxum qarışdı.

"Karun çayının otayındakı, yüksək binadan, bir arpıcı 7nin çaxılmasını, bir anda görəbildim. Arpıcının atıldığı otaq, bir anlıq atəşə bürünüb, ışıqlandı. Arpıcı mərmisi isə, fışıldayıb, siman bölükləriylə tikilmiş səngəri dəlib, dümdüz qarnımın ortasından burulub belimdən çıxdı.

Yuxuda, ayrı bir yuxu görürcəsinə, atamın bağırışı, arpıcı 7yə çönüb, yenidən atəşləndi. Arpicinin mərmisi bir ajdarha kimi atəş küfüldəyə-küfüldəyə mənə sarı fışıldadı. Gözümü qırpabilmədən, qarnımı söküb, səpdi havaya. Yüzə parçalanmış bağırsaqlarım, ciyərlərim, böyrəklərim, qavırqalarım, ətim, dərim havadan yerə doğru qıvrıla-qıvrıla, yağırdı. Yüksəklikdə uçaraq, baxırdım. Yüzə parçalanmış mən, dümdüz atamın üstün dümdüz atamın üstünə yağılırdım! Anam da mənim ardımca uçur, ağlaya-ağlaya çığırırdı. Yüzə parçalanmış mən, atamın sarığına tökülürdü. Atamın sarığına baxdıqda, yüzə parçalanmış mən, sarıqda, qızıla çevirilir, qırmızıya boyanır, parlayırdı. Parlaya-parlaya ışıq böcəkləri kimi ışıqlanırdılar. Sonra, bir-birinə sarıla-sarıla, balaca qurdlar törədirdilər. çirkin, eyrəti balaca qurdlar

böyüyə-böyüyə atamın üzünü cırmaqlaya-cırmaqlaya başını yeyirdilər.

Diskinib ansızın yuxudan ayıldım. Gözlərimi açdım. Xurrəmşəhərdə, çayın bu tayında olduğumu ayırt edəbildim..."

- "Mən də belə yuxular çox görərəm. Darıxma!" – ürək dirək vermək amacıyla, dedim ona.

- ...

Gözümün önündə düyü-mürəbba, düyü-meygo, Abadan hotelləri, Sadığın yuxusu fırlanırdılar. Başımı qaldırıb, Sadığa baxdım. Gözlərini Sadıq ayaq barmaqlarına tikmişdi...

Sadığın yuxusu, Xurrəmşəhərin küçələri, yıxıq-sökük evləri, Karun çayını mənə anımstdırdı. O küçələr! O yıxıq küçələrdə qurquşum pukələri, qompara parçaları, arpıcı quyruqlarından yerimək olmazdı. Qaranlıqda, ayaqlarının hara basdığını bilməzdin. Səs-kür salmamaq üçün, oğrular kimi küçələrdən burulmalı, səngərlərə sürünməliydin. O küçələrdə, əzilmiş, qanamış, ölmüş, qoxumuş toyuqlar cəmdəyi, yanmış, dəlik-deşiklənmiş maşınlar, parçalanmış, cırılmış, yanmış əskərlik çəkmələri, qanlı fanısqalar, yağlavılar, qapısı ortadan yarılmış, pəncərələri uçurulmuş sataqlar, yekə, enli soydurucularda ərimiş yağlar, pendirlər, konservələr, qoxumuş, çürümüş, eskeletlənmiş balıqlar, quzu qavırqaları... Küçələrin adı belə, yox olmuşdu. Divarları uçurulmuş, elektirik dirəkləri qırılmış, telləri asılmışdı.

Sadıqlar, Karun çayının otayındakı iraqlıları, heç tanımazdılar. Bir-birini görməzdilər. Gecələr, hansı səngərdə olduqlarını, bəlli etməməkdən ötürü, atəş açmazdılar. Yalnız,

cəbhə arxası olan İraq-İran topçuları, istədikləri zaman, yıxıq binaları qompara, muşəyə basıb, atəş yağdırardılar. Abadanda isə, yiyələri qaçmış, hotelləri, mənbərsiz məçidləri, potabaşlar saxlov eləmişlərdi. Orada qız, gəlin, əri öldürülmüş, dul qalmış arvadlar, gəlin Hüşəng kimi oğlanlar da tapılardı.

Sadığın Abadandan gəlməsini anımsayıram. Onu Abadanda beş-altı yüz, 15-20 yaşında cavanla yaraqlandırıb, savaş cəbhələrinə göndərmişdilər.

Sadıqlar Yedditəpəyə gəlmədən öncə, orası iraqlıların əlindəymiş. Onlar İraq əskərlərinin qazdığı səngərlərdə yerləşdirildilər. Geri çəkilmiş iraqlıların yeni səngərləri beş yüz metrə uzaqlıqlarında görünürdü. Onlar göydən yerdən qompara, arpıcı, kalaşnikovla qurquşum yağdırırdılar. Qompara-arpıcı qadasından qurtulan yemək maşınları, günorta saat ikiyə doğru düyü-meygo gətirərdilər. Onacan heç meygo yeməmişdi Sadıq. Qompara-arpıcı atəşindən uzaq bir cadəyəcən gətirilən düyü-meygoları, uşaqlar sürütdənə-sürütdənə dəliklərəcən gətirib, içəriyə tullardılar. Balaca müşəmmə torbalardakı yeməyi onlar, dəliklərin eşiyindəki qoxumuş leşlərin qoxusuna aldırmadan yeyərdilər.

Qarşıdakı İraq insanları da, Sadıqlardan ölənlərin leşləri gözlərinin önündə, yeməklərini yeməliydilər. Gecələr isə, qarın ağrısından, canını dişinə alanları görməliydin! Onlar sürünə-sürünə dəliklərindən çıxıb, yeyincəsinə çömbələrək, siçməyə çalışdıqda, bir sola baxar, şişmiş bir leş, bir sağa baxar, bir leş daha. Burma bığlar, qaraşın, şişmiş bənizlər ay ışığında qarın ağrısını unutdurardılar.

Bunlara baxmayaraq, dəliklərin içində, təkcə qompara-tüfəng səsi deyil, başqa səslər də eşidilərdi. Yazıq Hüşəng adlı Tehrandan gəlmə, on dörd yaşında göyçək bir oğlan, orada həm gəlin işi görərdi, həm də qəhbə işini. Qurup başçısı, habelə onun sağ-solları da razıydılar. Ancaq birisinin ətpayısını az verdikləri üçün, bütün dəlikdə yaşayanlara gəlin Hüşəngin qeyirilməsini açıb, tökmüşdü o. Dörd aydan sonra, Sadıqla bir neçə yoldaşı Abadandan Xurrəmşəhərə gəldiklərində, Hüşəngciyin şəhid olduğunu söylədilər.

Çayımı içdim. Sadıq dizlərini qucaqlayıb, baş barmaqlarını oynadırdı. Sadığın yuxusunu düşünürdüm. Mənim də onun yuxusunda olduğumu düşündüyümdə, "Mən dəmi oradaydım?" soruşdum.

- Harda?

- Gördüyün yuxuda

- Hə, yox! Səni görmədim.

## 3

**O**nun əlləri, yenə titrəməyə başlamış. Alnının qırışları qat-qat çoxalmış. Mizinin üstündən tütün torbacığından bir sigaret daha büküb, alışdırır. Sigaret tüstüsündə üzü gümüşə çalır. İçi bulanmaqdadır sanıram! Əlinin titrəməsini görürəm. lampanın çıy ışığında bənizi indi, turunca çalar bir günəbaxanı kölgələndirir! Bilgisayar monitorunun tox göyə çalar ışığında ona baxanda, yanaqları, tanımadığım bir qorxunu, ənginə doğru yaydırır.

O, balkon qapısına dönür. Titrəyən barmaqlarıyla sigaretini əmir. Ona gərəkli olan gücünü, çəkdiyi sigaretindən almağa dirənir. Sağ əlini közə çönmüş gözlərinə sürüşdürür. Balkon qapısına doğru atılır. Yox, yox, fırlanır! Qapını açır. Dərin nəfəs alabilmədiyindən, öskürür. Ayaqlarının yerə yapışdığını sandığından ötürü, durmadan onları silkələyir:

- "Durmamalıyam! Yeriməliyəm! Durarsam, ayaqlarım yerə yapışar yenə. Əriyər! Duman olaram! Necə Sadıq qurquşum içrə əriyib duman oldu; mən də, onun gərçəkləşmiş yuxusunda buğlanaram..."

Nə düşünmüşsə, balkon qapısını örtür. Qapalı otağından qorxduğunu duymaqdadır sankı! Dolab önündə durub, içindən bir şüşə şarab götürür. Otaqda yeriyərək, içə-içə geyinir. boğazını boğuntu sıxır.

İndi onun eşiyə çıxacağını, yoxsa ışığı düşündüyünü, ayırt edəbilməyirəm!

Ucadan danışır o:

- “Eşiyə çıxacağam, çıxmalıyam, yeriməliyəm! Bumu beyin çırpıntısı? çırpıntı nədir gülüm?! çarpıntı! Beyin çarpıntısı gülüm! Onu yaşadınmı sən?... Hə...! O! Mən...

# 4

**O,** Bina işığını açmadan, pillələrə doğru yeriyir. Birinci qata enməkdəikən, dönüb işığı açır. Binadan küçəyə çıxdığında, Avril yeli alnının tərini sərinlədir. Yeyin yerimək deyil, qaçır indi o!

"Hara qaçırsan?" soruşaraq, ayaqlarının hızını azaldmağa çalışır. Küçənin sağındakı çiçəklər, ağaclar uşqunso bir iy yayırlar. Uşqun qoxusu, gilənar dadını dadızdıran qırmızı şarabın çiyid qoxarlığını andırır ona. Dilinin keyintisi, beynini hənglənd irdikdə:

"Küz yeli! Küzün sarı yarpaqları! Mən Küzü daha unutmadım!" - deyib, qarşı binalara baxır. Evlərin işığı geçirilib, pəncərələrin pərdələri çəkilibdir. Minlər yol geçdiyi bu küçə, indi bam-başqa görünür. Biraz öncəki binaları, çiçəkləri, ağacları... görə-görə, küçəyə yayılan uşqun qoxusunu iyləyərək, küçənin nə olduğunu unudur. Bir boşluğa girdiyini duyduğunda, küçədə iki qız uşağının oynamalarını görməyə çalışır. Qızlar küçəni beynində işıqlandırırlar. Küçələrinin başındakı otubus duracağını belə anımsayabilir indi. Gecələr otubus minməyi sevib-sevmədiyini unudmuş artıq. Küçəni kəsən anacadəyə yetişmədən, Berliner cadəsinə doğru sürən otubusların duracağına yeriməyini anladığında, qızları unudur:

- "Otubusu gözləyəcəyəm. Bu gecə... Yox, yeriməliyəm. Otubus-motubusa minməyəcəyəm. Küçələri dəyişik geçmişlərdə görmək, gözəl də olabilərmiş!" - deyə, anacadəyə yetişərkən, sola dönür. Üzünə doğru uzanan dal budaqlar,

nəmov qoxularını burnuna yaydırırlar. Dərin bir nəfəs alabildiyinə sevinir:

- "Bu ağacların qoxuları palçıq dadızdırırlar mənə. Onlar, məndən daha çox torpağın lığını duyurlar. Onlar püskürəndə, torpağın anılarını göyərdərmişlər. Mən isə, nə göyərtməliyəm? Dərin bir nəfəs alabildiyimə sevinən mən; nərdəysə ağac yemi olacağımı belə, qanmağa başarıqlı olabilməyirəm."

O, anacadədə öz-özünə danışaraq, dayanmadan yürüyüş istəyini beyninə yükləmək istədiyində, "Dayanarsa, donacağını, quruyacağını, əriyəcəyini..." sanır yenə. Otomobillər səs-gürültüylə, beyinə cırnaq çəkərək, ışıqlarını onun gözlərində əritib, qıcıltıyla sağından ötürlər. Nə düşünmüşsə, uca səslə danışır:

- "Səslərdən qaçma başarığının təkcə yolu, onlara aldırmamaqdır. Düşünməmək... Dayanmamaq..."

Başqa birisiylə danışırmışcasına, səsini yumuşaldır:

- "Quzum mənim! Məni yazmadan hara qaçırsan? Qaç! Səni yaxalaram! Mən Sadıq deyiləm! Öldürülməmişəm! Təkcə məni düşünməlisən! Sənin qurtuluşun, məni yazmaqdır! Dön! dön evinə! Qaçma! Otur oturqacına! Tərlə! Ərit donuqluğunu! Qorxma, yapışmazsan oturqaca! Dərin nəfəs alabilməyi sən, bir ağacdan, dəmirdən, çiçəkdən, unutduğun bir küçənin boyutlarından belə öyrənməyə başarılısan!"

Otubus duracağında oğlan-qızlar otubus gözləyirlər. Onlara yaxınlaşdığında susur. Yanlarından geçir. Tütün torbacığından bir sigaret bükür. Berliner cadəsinə

yetişdiyində, sağa dönür. Tramvayların duracağı görünür. Sözü yarımçılıq qalmışcasına, beynini qurcalamağa başlayan bir "o"yla danışır:

- "Tramvaya minsəm, gözəl bir qız tavlasam, səni boğduraram. Səni beynimin bucaqlarında gizlədərəm..."

Berliner cadəsindən Rayn çayına doğru yeriyərək, otomobil, tramvay, otubus, barlar, restoranların çiy ışıqlarını içinə yükləməyə çalışır. Işıqları düşünür sankı. Danışır yenə:

"Artıq sən mənim içimi qara basabiləcəyinə ınanmayıram! Sən yoxsan! Nə tramvaylarda, nə otubuslarda, nə küçələrdə, nə də özünü içinə atıb, boğduğun Rayn çayında! Ancaq mən yenə də tramvayda səninlə qarşılaşmamam üçün, ona minməməliyəm. Tramvayların bütün oturqacları səndən doludur. Sən onların anası olduğun üçün, onlara oturanda yapışmayırsan! Mən isə oturmamalıyam! Yeriməliyəm! Qaçmalıyam ondan!" - deyə, əllərini gözlərinə sürdürür. Birdən-birə kipriklərini qoparacağından qorxduğundan, onları ceblərinə soxur:

- "Şapbadan gözlərimi oysaydım...!" deyə, bu qorxunc sanrısından, əllərini ceblərində yumur. Yenə anımsaya başarmadığı biri, onun beynini qurcalayır:

- "Hə! Gördünmü? Belə olar gülüm! Sən sürəkli söylədiyin öz yalanlarına çarpılacaqsan! Rayn çayına atıb, özümü boğduğumu, yalanlayıb, sənin içində boğulduğumu nə zamanacan gizlədəcəksən!"

"Kim, kimlər beynimdə gəl-getdədirlər?" - soruşur özündən. Əllərinin incinməsini duyduğunda, çıxarıb, ovuclarına baxır. Yeriməkdə olduğunu unudmuş kimi,

ayaqlarının yerə basıldığını duymaq üçün, addımlarını sayaraq, sağ-soluna baxmağa çalışır. Cadədən açılan küçələrə, adamlara, otomobillərə, zıbılqablara, dönərcilərə... baxır. Səs-gürültü qulağından qulaqçasına, qulaqçasından beyninə doğru dırmaşırlar sanki. Qaynar su beyninə səpilir deyəsən! Beyninin damarlarını yandıran su, axaraq, boyun damarlarını, qaslarını, ürəyini yaxır. Ayaqlarının yeyinlənməsini belə, duyammayır. Cadənin solundakı dönərcinin ışıqları, onun gözlərini çəkir. Onun adı göyə çalar boyayla qocaman camında yazılmış. Oxumağa duruqsayır:

- "Köroğlu Dönər evi"

Düşünür görünür. Biraz öncə sarıdığı sigaretini alışdırıb sömürür.

- "Mən Türkiyədəmi, yoxsa Köroğlu Dönər evinin qarşısındayam...? Köroğlu...! Sərşən... Hə! Tapdım...! O kitab, qız, o günəş... ay... O Sərşən kitabı...!"

Sağ-soluna göz gəzdirir. Rayn çayına ayaqla 10 dəqiqəlik bir yol qalmasını hesablamayı başarır. Başını çevirib, yenə dönərciyə baxaraq:

- "Köroğlunun adı, Sərşən deyildi ki! Onun adı... Rövşəndi! Sərşən haradan çıxdı? Kimdir Sərşən?"

Beynini, bəlləyini olduqca gücləndirir:

- "Nədən Sərşən, Rövşəni soxdu bəlləyimə? Mən Sərşəni bir kitabdamı oxudum? Hardan tapmışdım o kitabı? Onu mən tapmışdımmı? Neylədim onu?... Hə, yazdım! Bilgisayaramı yazdım...? Onu mənə bir qız vermişdi."

Şapbadan dönür. Az qala qaçacaqdır. Cadənin soluna geçir. Otubus duracağında, gəliş saatlara baxır. Sigaretin kötüyünü ayağıyla əzib, evə doğru yürüyür. Yürüyərək, bir daha da dönüb, arxasına baxır. Rayndan uzaqlaşdığının sevincinimi, yoxsa qayğısını düşündüyündə, bir an "o"nun Rayndan çıxabilib, onu izləyəbiləcəyini sanır! Onun adını bəlləyində gizlətməyə çalışır...!

Küçələrinə yetişdiyində, tələm-tələsik açarlarını çıxarır. Binanın eşik qapısını açıb, ışıqları açmadan pillələri ikişər, üçər atılır. Evinə yetişdikdə, açarı qıfıla salıb açır. İçəriyə girir. Sağ əliylə otağın ışığını açaraq, pencəyini çıxarır. Bilgisayarının düymələrinə basaraq açır. Yazdığı Sərşən dosiyəsini axtarır. Bilgisayar açılanacan, bir istəkan şarab süzür. Oturğacına oturaraq, istəkanına əl uzatdığında, o qız başbarmağından oyanıb, çımırcığında düşlənir. Qız istəkan şarabını götürüb, bir qurtum içdikdən sonra, yenə yerinə qoyur.

Qızı görəbildiyindənmi, yoxsa istəkanı görünməz bir əl götürüb içməsindən, ağzı açıla qalıbdır onun. Qız danışmağa başladıqda, daha da bətər hoyuxur o. Qız üzünü ona tutaraq:

"Sən, yuxuda bir düş düşləndirilirdin! Gecəydi! Büyücü bir düş-qarabasmaydı! Sən yuxuda, əlində o kitab, oxumaqdaydın! Başının üstündəki lampanın zolaqları oturma otağına bir pərdə çəkirdi. Sən, birinin sənə baxdığını duyduğunda; ona baxdın.

Bir qız!

Sən daha, anımsayamazdın onu! O, sağ əlini sənə doğru süzüldürərək, sənin gözlərini qaralamağa çalışırdı.

Sən onun yanaqlarını sezirdin. Onun sağ-sol yanaqlarında, iki damla qan, qaynaşırdı! O, səninlə danışmağa çalışırdı. Onun sağ yanağındakı damla, dodağına doğru yayılmağa başladı.

Sən qorxdun!

Damla isə, dodağından döşünə doğru süzülə-süzülə, göbəyində yuvarlandı!

Sənin anıbəlləyin dölləşmə diləyirdi artıq!

Damla, qızın göbəyində böyüməyə başladı.

Sən, dölləşmə mudqarını görməmişdin daha!

Qızın göbəyində damla böyüyə-böyüyə, köpüklənərək, qırmızıya toxlanır, orada uzanır, ənlənir, bürüşür, yumulur, açılır yoluxurdu. Yoluxa-yoluxa yastılanıb, bir daşa çöndü.

Onu sən, məzardaşı sandın! Onun üzərində, bölcüklər yonula-yonula, sözcüklərə dönüşürdü. Sən sözcükləri oxumağa çalışırdın!

Məzardaşın üzərindəki sözcüklər dönə-dönə yuvarlaşaraq, adlaşırlardı beləsinə:

Malam Açmac

Lamac Kəmləç Əmərc

Mamac Məynəş...

Sənin gözlərinlə Məynəş adlı qız, dölləşmək diləyirdi! Bölcüklər isə, ərimeyə başlamışlardı. Qucaqlaşaraq, dölləşə-dölləşə özlərini qızın göbəyindən çuxuruna soxuşdururdular! O qız, məndim! Sənin gözdölün daha artıqraq anımsayırdı məni! İkinci damlaysa, sol yanağımdan göbəyimə doğru süzüldü.

Sən qorxunu, ərginliyə doğru aşmaqdaydın! Mən qaraladığım sənin gözdölünü, süzülən damlanın bəlləyinə soxdurdum! Onlar qaynaşır, köpükləşir, böyüşürdülər mənim göbəyimdə! Böyüyə-böyüyə yuvarlanaraq, bir Sarpıza dönüşdülər. Sonra Sarpız şişməyə başladı. Şişdi, şişdi, şişdi...

O şişməkdəykən, çuxuruma soxulan bölcüklər dönüb, göbəyimdəki Sarpıza dırmaşdılar! Onlar şişməkdə olan Sarpızın mudğarına doğru dırmaşaraq, qarınçalaşırdılar!

Sən dölbəlləyini anımsamağa başlayırdın artıq!

Sarpız təpəsinə ərən qarınçalar böyüməyə başladılar! Böyüyə-böyüyə buynuzlarıyla Sarpıza soxuşdururdular!

Sənin gözdölün artıq, qarınçalarda sənləşirdi!

Qarınçalar partlatma bəlləklərindən buyruqlandıqda, şişən Sarpızı partlamağa qalxışdılar! Qayçılaşmış buynuzlarını düyünləşdirərək, caynaqlarıyla Sarpızın təpəsini cırmaqlamağa başladılar! Sarpızın şapbadan partlayışıyla, içindəki bölcüklər qarınçalara qarışdılar...

Sən artıq dölləşmə gücünə ərməkdəydin! Sarpızı partladan qarınçalar isə, bölcüklərlə cütləşərək, yenidən çuxuruma doğru sürüşərək, dönüşdülər. Sənin qarınçalaşmanın bölcükləşməsindən acıyan gözbəlləyin çığıraraq, səni yuxudan oyatdı! Əlində o kitab, gözlərin lampanın zolağından qamaşırdı! Çevrənə baxa-baxa məni axtarmağa başladın. Danılmışdın artıq! Mənim uşaqlığımda döləkdin daha! Qançıçəndən Koroğluyacanlığın qoxuş-dönüşə başlamışdı! Sənin yeni törənişin üçün, səni dölləməliydim artıq! Sən, çox qorxmuşdun, "Qorxu ölümdən

yaman!" - deyirdin. Yatağından oturmaotağına doğru sıçradın! Mənimlə orada qarşılaşacağına ınanırdın! Orada ancaq, kimsə yoxudu. Yatağına qayıtdın! Məni beyninə yüklərkən, varbəlləyini qullandığında, unudqanlıq döngəsini mən unutdurmadım sənə! Danyeri sökülmüşdü. Günəş ışını pəncərəndən kilimləri ışındırırdı. Sən bir qəhvə pişirmək üçün, oturmaotağına doğru yeriyərək, günəş ışını, gözbəlləyinə çarpar-çarpmaz, unutqanlığı unutdun artıq! Sonra, ansızın mənim adımı bölcüklədin:

" M...ə...y...n...ə...ş...!"

Səsini "Qonşular eşitdilər!" sandın. Sonra, düşünmədən telefona doğru fırlandın.

- "Kim? Kimə telefon edəcəyəm?" - soruşmadan, əski telefon dəftərini düşündün! Sən artıq, nə qılacağını bilməliydin!

## 5

**O**, bir yuxunun ardını görürcəsinə, bilgisayar oturqacından qalxır. Birinin telefon nömrəsini axtarır. Dolab çəkməcəsindən telefon dəftərini tapıb, nömrəni yığır. Telefon dəstəyini qulağına yaxınlaşdırdıqda, onun telini kəsdiyini anımsayır. Divanının üstünə atıb, divardolabına doğru yeriyir. Qapısını açıb, əski bir telefon götürüb, telbağlacını taxır. Yenidən nömrəni yığır. Telefon bib çalmağa başlayır. Sonra bir xanımın səsi eşidilir:

- Əlo, buyurun! Kim olasız!

- Sadıqla danışmaq istəyirəm xanım.

- Sadıq kimola?

- Sadıq, Sadıq Əhərli, Mələkə xanımın dadaşı...

- Mən nə Mələkəni tanıyıram, nə də Sadığı!

- Bağışlayın! Telefon nömrəniz 346754 deyilmi?

- Yığdığız nömrə düzdü! Tilifunnar ayda beş altı yol satılır.

- Satılarmı...?

- Bəli...

- Bağışlayın!

- Az qalır adamlar da satılsın! Bəyəm bilməyirsiz?- deyib, kəsir.

- Adamlarmı orada satılar? Mənim... Məynəşim! - bağıraraq, dəstəyi yerinə qoyur. Nə eləməyini, necə Sadığı tapabiləcəyini düşündükdə, yuxusunu, Mələkəni, ayılışını anımsayır:

- Mənim Məynəşim adam satılan bir ölkədə yaşayır! Özümü tapdım! Adımı, geçmişimi... anımsayabilirəm indi! İlk yol Məynəşimlə görüşdüyümdə, adım mənim, Oxçay deyildi. Anam məni, Quluş çağırardı! Mələkənin də adı, Məynəş deyildi! Məynəşin adını, anasından öyrənmişdim! İndiysə, onun 33 yaşına girdiyini belə bilirəm. Son gördüyüm Məynəşimin gülüşdən çömçələşən dodaqları, gözlərimə yayıldıqda, baxışlarımdan sevinc süzülmüşdü. Sonralar bir-birimizlə sevişmişdik!

Birinci yol gördüyüm 18 yaşında Mələkə, qara qaşları, çəkik zeytin gözləri, uzun hörükləriylə gözümün önündədir. 1981 illərindəydik. Günbatana doğru Sadıqların qapısını çaldığımda, Mənsur, Sadıq, yoxsa Məqsudun qapıya çıxmasını gözləyirdim. Qapı açılıb, gənc bir qızın qapı arasından, "kiminlə işiniz var dadaş?" soruşduğunda, yanılmış da qonşu qapısını çalıb-çalmadığıma arxayın olmaq üçün, sağ-soluma baxdım. Yanılmadığıma arxayın ola-ola, çaşqınlığımı gizlətməyə çalışaraq, "Sadıq bəy evdəmi?" soruşduğumda, çaşbaşlığımı anlamışcasına, "Mən Sadığın bacısıyam. Buyurun!" söyləyərək, içəriyə girməyim üçün yana çəkildi. Gülümsəyərək içəri girib, qapını qapatdım. Öndə yeriməyi üçün, dayandım. "Buyurun! Buyurun geçin yuxarı." deyə, önə düşməmi istədiyində, gözlərinə çarpışan gözlərimi, bir anlıq qapadmağa başardım. Gözlərimi açdığımda, uzun kipriklərinin üstündə, gilələrinin kövrəkliyindən, "Ürəyimin döyüntüsünü eşidəcək indi!" düşünərək, qızardım. Kiprikləri onun, bir-birindən sökülər-sökülməz, gözlərimiz yenə, bir-birinə çarpışdılar. O da

qızardı. Gülümsədim. O da gülümsəməyə çalışdı. Yan-yana pillələrə doğru yeriyirdik. Yan-yana pillələri çıxmağımızı, otaq qapısının önünə vardığımızda anladıq.

Yarım saatdan sonra çayları gətirən Mələkənin, "Xoş gəldiniz!" dediyində, yanaqlarındakı gizli bir sevinc döyüntüsünü eşitdim. Onun dadaşı Əhərli Sadıq, 20 yaşındaykən, çəkib Tehrana gəlmiş, 2-3 il işlədikdən sonra, iki qardaşı Mənsurla Məqsudu oxutdurmaq üçün, öz yanına gətirmişdi.

"Yoxsulluğun üzü qaya olsun! Mən oxuyabilmədim; azınnan qaydaşlayımı oxutduyum." deyən Sadıq, gecə-gündüz işləyir, onları oxutdurmağa çalışırdı.

Mələkəysə, bir yaşındaykən ataları, körbağırsağının partlanması nədəniylə ölmüşdü. Məqsudun da oxuyub, həkim olmaq, həkimsiz kəndlilərə qulluq etmə diləyi, ondan qaynaqlanırdı. Sadıq isə, atasından danışanda, boğazı düyünlənər, xınovlanardı. Atasının uşaqlıqdan yoxsulluqla əlbayaxa olduğunu, beş yaşındaykən yetim qoyulduğunu söylərkən,  acığını farslardan, gizlətməzdi.

Bir yol o, fars ordusu "Azərbaycan Milli Hökuməti"ni çökdürəndən sonra, böyükbabasının "Qızılbaş Atlıları"ndan olduğu üçün, Təbriz Saman Meydanında asdırıb, var-devlətini aldırdığından söz etmişdi. O, alınyazıya ınanmayırdısa da, "Yəhmətliq qaynanamin qoybaği qoluma keşdi!" söyləyən anasının sözünü unudmamışdi.

- Sadıq! "Qaynanamın qolbağı qoluma geçdi" nə demək? - soruşduğumda, acı bir anıdan danışmaq istəmədiyindənmi, "Onu nənəmnən soyuş! Mən nə bilim!" söyləmişdi.

Mələkəylə ovaları Kəndovaya getdiyimizdə, qolbaq hikayəsini anasından soruşdum.

O:

- "Mənim, bala! Biy dana qaynatam vay idi, çox da qeyyəddi kişiydi! Tehyandan gələn əyteşiləy onu öldüydü! Qaynanam əysiz qaldı! Dul qaldı yazıx! Uşaxlayı da qaldı avaya! Mənim Qaynatam bətəy vayliydi! Oyu "Qiziybaş attılaya" göya, öldüydülə! Oyun həynəyi də vay idi, veydiləy satqınnaya. Oyun üçün də, mənim əyim yoxsulluxdan öldü. Mən yazıx da dul qaldım! "Sənin dul qaynananın qolbaği keşdi qolbağina!" dediləy mənə! Mənim Məynəşim də dul qalmasın, deyə, oya Aşıq Quyu otundan yediytdim! Oya yeditməseydim, məyim qolbağım da, Məynəş qizimin qoluna keşəydi!"

- "Aşıq Quyu otu nədir ana?" - soruşduğumda,

- " Oyu sən bilməzsən bala! Aşıq Quyunu tani, ondan soya! Məynəşim onu sənə tanıytdıyay." - dedi.

Mələkənin göz qırpışıyla, anasından soruşacaqlarımdan vaz geçdim artıq!

## 6

**O**, sevincdən uçar sanır özünü. Onun gövdəsinin gəvşəkliyi belə, dincliyini yansıtır. Səhənd dağları gözünün önündə oyuna qalxır, Təbriz cadələrində yürüyür görür özünü. Əlçantası əlində, Təbriz-Tehran otubusunu qaçırmamaq üçün, Təbriz otubus terminalına doğru tələsir. Öz işlərinə gülərək, "Niyə Təbrizdən Tehrana gedmək üçün tələsirdim?" soruşur. Unutduğu görüntülər, çiy, sısqalı ışıqlar kimi, gözünün önünə sərilir. İtirdiyi bəlləyi, ağır qışdan donan, yazın ilkin günəşində yavaş-yavaş quyruğundan tərpənən ilan kimi oynaqlayır. Qırmızı muncuqlu, məxməl qovluq, onun içindəki Göy Bitik adlı o kitab, Tehran, yayın ortası, isti, beyin qaynaması, tüstü, otomobillər, otomobillər, düdüklər, düdüklər... bib bib çalınmalar... Beyni qaynayır. "Məynəşim mənə: "Sən artıq, nə qılacağını bilməliydin!" söylədi. Ona getməliyəm! Çağırır məni!" deyə, bilgisayarda yazdığı Göy bitiyi oxumaq üçün, oturqaca oturur.

O artıq, nə qılacağını bilir. Bilgisayara yazdığı Göy bitiyi oxuyandan sonra, Mələkəni axtarmağı kəsinləşdirir. Ertəsi gün, "Yeşil Reise Büro"nun yiyəsi, Cəngiz bəyə telefon edib, biletini rezerv eləyir. Çərşənbə, günortadan sonra saat 17:30 Köln havalımanında olmalıdır. Günləri deyil, saniyələri saymaqdadır. Göylərdə uçaraq, Göy bitiyi bir gecə, bir yol da gündüz oxuyur! Birinci, ikinci günü beləliklə sovuşdurur. Uçuşuna bir gecə daha qalmış! Götürəcəyi paltarları, gərəkli olanları, balaca bir çantaya yerləşdirir. Artıq gün batmış. Onun gözləri, günbatan ışığında qıprımdan qıpríma dəyişir.

Duyğularını gözlərindən anlamaq istəyirəm. Üçüncü şarab şüşəsini də açır o. Ayaqda duracağı yoxdur. Şövkətin əski mahnılarını dinləyərək, götürəcəyi kağaz-küğazlarını da əlçantasına yerləşdirir. Bütün bəlləyi çilikləşib, çevikcəsinə tanımadığım, ayrı-ayrı duyğular içrədir. Mələkənin bənizi, gözləri, uzun, hörülmüş saçları gözlərinin önündədir. Duyğulandığından, öz-özüylə ucadan danışır:

- "Bir gecə daha! Döz! yalvarıram! Gələcəyəm. Gəlirəm!" - deyə, buzdolabın dondurucusunda yatırdığı vodkanı çıxarır. Böyük bir bardaq, beş sarı limon, şəkər, buz, əzdirici makına... hamısını mutbaq mizinin üstünə düzür. Dörd istəkan vodka, üç qaşıq şəkər, beş dördkən buz əzdirici makınaya qoyduqdan sonra, iki limonu qaçlayıb, sıxır üstünə. Əzdiricinin qapağını qoyub, düyməsinə basır. İstəkanını doldurub, bir qurtum içdikdən sonra:

"Məynəşim mənim... Gəlirəm. Döz! Uçaraq gəlirəm."

İkinci istəkanı da ac boğazından aşırdır. Son gecəni tək başına evdə qalmamağını düşünür. Hara gedəbiləcəyini bəlli etmək üçün, səhərəcən açıq olan içgi evlərini gözünün önündə canlandırır:

- "İçgi evini burax! Mənim evim özü, tək müştərili bir içgi evidir da!" deyə, əsrükcəsinə gülüb oynayır:

- "Oynamalıyam! Diskoya gedəcəyəm! Son gecəmdir! Son oyunum da olabilər. Son oyun! Son oyun!" -düşünərək, qorxu içində susur! Gözünün önündə daracıq, qaranlıq, su dolu bir sellül canlanır. Sellüldən bir eskelet ayağa qalxıb, gözünün önündə oynayır. Ətsiz, quru, ölü, iyrənc əllərini boğazına doğru uzadıb, onu boğmaq istəyir. Boğulacağından

qorxur. İstəkanının dibindəki içgini, boğazına boşaldaraq, geyinib, eşiyə fırlanır. O çirkin, iyrənc əlləri unudmaq üçün, qaçır. Təkcə, nəfəs çəkməyi unudmamağa çalışır.

Frizen adlı meydanın yaxınlığında ayılır. Gənc qız-oğlanlar meydana doğru yeriməkdədirlər. Qol-qola, qolboyun, əl-ələ, yan-yana, cüt-cüt, tək-tək, üç-üç, dörd-dörd, gülə-danışa, susa-gülə... yürüyürlər. Onlara baxır. Bənizlərində dincəlməyə çalışır. Susanların gözlərinə baxmaqla, gözünü unutmağı başarır. Tək yeriyən qızlar, marağını daha çox çəkirlər. Gördüyü hər gözəl qızın gözlərinə baxdıqca, Mələşi gözünün önünə gəlir. Utanır gizlicəsinə: "Yalanmı sevgim ona? Birisini bu son gecə torlarsam!" deyə, düşündüklərindən inciyir. Onu özündən gizlətməyə dirənir. Əski hovardalıqları beynində oynaqlamağa boy atırlar! Gedəcəyi disko-bara yetişir. Disko-barı gördüyündə, qızları unudur artıq. Disko-barın əski, ağır dəmir qapısını çəkib, girir içəriyə. Qasa dalında oturan çinliyə bənzər bir qız giriş pulunu alıb, bir giriş kartı verir ona. Qızın solunda dik duran, uca, enli kürəkli, qorxunc bir daş heykələ bənzər qapıçı, başdan ayağa süzür onu. Nə gözlərində, nə gövdəsində heç bir qıvrılış yoxdur. Düm-düz, dim-dik, daşdan yonulmuş heykələ bənzəyir. "Robotdur deyəsən!" deyə, bəlləyindəki, "Heç bir nəsnənin, həç bir görüngünün özü qorxunc deyil; olsa-olsa görünüşüdür qorxunc!" bir şiiri anımsayır. Giriş kartını verib, ikinci açıq dəmir qapıdan içəri girir. Sağa sola göz gəzdirir. Qarşısında yuvarlaq, dayanacaqsız bar oturqaclarının bir neçəsi boşdur. Başda bir oğlanla bir qız qolboyun tüstü içrə gümüşə çalır bənizləri.

Sağ-sollarında iki oturqac boşdur. Önündəki boş oturqacların yanında, ayaqda duran bir zənci qız, oynayanlara baxır. Qara qızı titizcəsinə seçir. 22-23 yaşlarında olar. Başqalarına baxmadan, düşünmədən ona doğru yeriyir:

- Yanınızda oturabilərəmmi?

- Buyurun, boşdur. - gülümsəyir qız.

Bir ayağı yerdə, obir ayağını oturqacın ayaqdayağına basaraq, oturqaca oturur.

- Nə içərsiniz bəy? - barçı qız soruşur. O, çəkinmədən onun gözlərinin içinə baxıb, gülümsəyərək:

- Özəl limonlu bir vodka istərəm.

- Limonlu vodkanın özəlliyi nə?

- Özəlliyi gözəl uçduruşudur qız xanım! Bir istəkan vodka, limon suyu, bir yeməkqaşığı şəkər qarışdırsan, mən dediyim olar!

- Şəkərlə alkolmu? Uçurdar...

- Mən də uçmaq istəyirəm.- ucadan gülürlər:

- Onsuz da siz uçmaqdasınız bəy!

- Yüksəklərdə deyil ancaq! Yüksəklərdə uçmaq istəyirəm!- bir şey demədən, başqa bir müştərinin tapşırığını almaq üçün, barın obir başına gedir.

"Zənci qızı, qısqanç olmazmış!" söylənilsə də, bu biri ancaq, güləndə belə, qısqanlığını gizlədəmməyir:

- Ağır içgilərə alışqansınız sanıram! - deyir.

- Deyil! Bu gecə mənim üçün, özəl bir gecədir.

- Özəlmi? Haaaahaaahaaaa... Vodkan özəl, gecən özəl, özün də özəllərə bənzəyirsən!

- Hə! Gözəlləri deyil, özəlləri sevərəm!

- Sizdə şairlik ərdəmi də varmış!

- Olabilər... Haralısınız?

- Qınalıyam. - əlini uzadaraq, adını söyləyir. Barçı qız limonlu vodkanı gətirir. İstəkanlarını qaldırıb:

- Sağlığa!

- Sağlığa! Məynəşimin sağlığına!

- Necə? - soruşur qız.

- Məynəşimin sağlığına! Məynəş mənim...

- Boş ver Meğneşi! Dəlirmək sağlığına!

- Boş verəməm! Oyun sağlığına! -limonlu vodkasının qalanını boğazından aşırıb, bir daha da barçı qıza tapşıraraq, zənci qızın belinə sarılır:

- Oynamaq istərmisiniz?

- Sizinlə...? Hə! Sizinlə dans etmək istərəm.

- Oh... çox incəsiniz!

- Sağ olun! Artıq sizə, sən deyə bilərəm, demə?

- Çox da sevinərəm!

Oyun yerində əlini onun belindən sökərək, ortaya fırladır qızı. Sigaret tüstüsündə ışıqlar, bir günbatan yelində sürülən, bükülən, qıvrılan, sanırdan yoğurulan biçimlərə soxulan buludlartək, onların kölgələrini oynadır. İlkyol diskoya getdiyini ona andıran bir ortamdır. Daha doğrusu, ilkyol Türk bir qızla dans etdiyi disko, gözünün önündə oyuna

qalxmış. Sıradan hər hansı Türk bir qızla oynadığı deyil; oynaşıb, sonra da sevdiyi, sevgisini içində boğduğu Türk bir qız!

O oynayaraq, Holandada Ezrayla bir diskoya getdiklərini xatırlayır. Gözünün önünə o gecə sərilir: Ezranın önündə, müzik: Seks... Seks... Seks... çalaraq, döş-döşə, üz-üzə oynayırlar. Bu anıdan qayğılanır biraz! "Ezranınmı sevgisini içimdə boğdum?" düşünərək, Ezrayla oynar sanır özünü. Birinin arxadan göbəyinə sarıldığını duyunca, dönür. Zənci qızdır! Onun əllərini göbəyindən sökərək, yaxalayıb, oynadır. Işıq onların gözlərinə çırpınca, dönüşmələrində çiyləşir. Ezraylamı, yoxsa zənci qızla oynadığını ayırt edəbilməyir! Gözünün önündə Ezra, belini bükərək, omuzlarını 1-2 1-2 döydürən elektronik davullarla oynaşdırır...

Bara döndükdə, barçı qıza:

- Viski lütfən xanım qız!

Viski sözcüyü eşidən barçı qız:

- Siz, nə içməyinizi daha yaxçı bilərsiniz! Özəl limonlu vodkayla viski... heç içilərmi?

- A, a...! Bağışlayın qız xanım! Qarışdırmışam. Burasını Holanda sandım. Sən mənə yenə də limonlu vodka versən, mənim dediyim olar! Lütfən!

- çox içdiyinin ayırdındamısan? - zənci qız soruşur ondan.

- Hə! Xeyr, bilməyirəm. Holandaya uçmuşdum!

Zənci qız boynuna sarılır onun. Ezranın nəfəslərini duyurmuşcasına, boynunu qoxlayır:

- Ezranın qoxusu başqadır amma! - söyləyir...

Gözlərinə baxıram. Məynəşini unudmuş deyəsən! Zənci qız, taksı çağırtdıqdan sonra, onu eşiyə çıxarıb:

- Evinin adrisini söylərmisən? - soruşur.

- Evimin adresinimi? Neyləyəcəksən?

- Evə getməyirikmi?

- Evəmi? ... Mən oynamaq istəyirəm! Ezra...Məynəşimlə.

- Hara sürüm bəy? - sürücünün səsini eşitdikdə, başını qaldırıb, bir taksı içində olduğunu anlayır. Sürücü bir daha da soruşduğunda, zənci qız dillənir:

- Özün taksı çağırtdırmadınmı?

Başını sallayır o. Uçurtmatək şişirdilib, yeldə üzdüyünü duyur. Enmək üçün, taksı qapısını açmağa çalışır. Zənci qız yardım eləyir. Soyuq yel qızarmış yanaqlarını iliklındirir. Kiprikləri qamaşır. Azacıq ayılır. Ayaqda durabilməyir. Taksıya minir yenidən. “Mən evə gedirəm, o hara gedir? Onu mən evə götürmək istəməyirəm.” - düşündüklərini, qısa bir tümləcə sığdırmağa çalışır. Sözcüklər ağzında qayıştək çəkilib, uzanırlar:

- Sən... hara... ged...irsən? - zənci qıza deyir

- Səninlə gəlməmi istəməzmisən?

- İstərəm... də...! Ancaq bu gecə de...yil. Mən... sabah...

Zənci qız onun sözünü kəsib, enərək:

- Görüşmək üzərə...!

Sağollaşıb qapını sərtcəsinə çırpır.

Evə vardığında, vargücünü saatı tapıb, qurmağa toplayır. Necə yatağa girdiyinin, ayırdında belə olmayır. Səhər, saat çalğısıyla oyanır. Başı dəyirman daşı, olduqca ağır; ağrıyır. Gözləri yanır. Öskürür. Şapbadan yatağından fırlanır. Saat 17:30da Köln havalımanında olmalıdır!

# 7

**O**, ışıq içrə üzməkdədir indi. Onun sigaret tüstüsündə, dördkənlər yuvarlaşaraq dikləşib, yastılaşırlar! Onlar üçkənləşib, bucaqları dəmirləşərək, körpülər böyründə uçaqlaşaraq, İstanbullaşır! İstanbul Atatürk Havaalanında uçaqdan enir. Pasaport yoxlamasına doğru yeriyir. Yolçular sıralarında əlçantaları bir əllərində, obir əllərində pasaportları, dözümsüzcəsinə sıralarını gözləyirlər. Nədənsə, üçüncü sırada o yeriyərək, şapbadan zənci qızı anımsayır! Ansızın qulaqları, beyin keyidən səslərlə dolub, daşır! Bir diskoda sanır özünü:

- "Ey vay...! Mənə nə olur! Hardayam mən? Diskomu burası? A...a.a... Zənci qıza bax! Yox, yox! Burası Neymeyxendəki diskodur! O Ezramı orada oynayır? Nə oldu mənə? Dur bir düşünüm! Mən orada "Ezranın sevgisindənmi danışdım?" öz-özünə gülə-gülə:

"Ezranın adı Leyla deyildi ki! Onun adı Ezraydı. Mən beynimdə, nədən onları diskoda oynarkən dəyişik saldım? Ezra Kölndə yaşamayırmı? Onun Mart ayının yirim birində, düm-düz bizim Yeni il bayramımızın axşamı toyu olmadımı?

Onun anası Esrar, mənə bir toy dəvətiyəsi göndərmişdi! Mən onun toyuna gedəbilmədim. Bayram axşamı necə "o"nu yalqız qoyub, gedəbilərdim? Esrar gözəlim "o"nu dəvət etməmişdi ki! O...!

Vay bə...! Bu sırada bitməz-tükənməz oldu! Pasaportum hardadır!" deyə, kimliyini çıxarır.

Uçağa minənlər, enənlər, pasaport kontroluna doğru tələsənlər, yüklü, boş daşqalar, uşaqlar, qadınlar, polislər, bəkçilər, süpürgəçilər gözünün önündə oynaşaraq, bir şeylərlə uğraşırlar! Onların hərəkətli səs-kürləri qulağında qalınlaşaraq, boğuqlaşırlar...! O,

"Buyurun polis amca!" - demək istəsə də, nifrət etdiyi pasaportunu uzadaraq, "Buyurun bəy!" dediyinə, sevinirəm. Bir anlıq da olsa, onu sevəbiləcəyimi diləyirəm! Dörd saatdan sonra onun uçağı İstambuldan qalxacaqdır. Sırada bir oturqaca oturur. Altı saatdan sonra, - özü demişkən- "Xərçəngli o Tahran"da olacaqdır.

- Annə, annə şuyaya bakaymısın?

Oturduğu yerdə o, tanış bir səs eşidirmişcəsinə başını qaldırıb, önünə baxır. Yerçəkimindən güclü bir cüt göy göz, onun gözlərini çəkə-çəkə içinə alır. Daranmış saçları qızın, çiyinlərindən omuzlarını, kürəklərini oxşaya oxşaya belinə bağladığı, incə qırmızı belbağısına doğru dalğalanır. Uşqunso qoxan o küçədə iki qız uşağının oynamaları bəlləyində oynanır birdənbirə. Biri, 4 yaşında Şiliyalı Onelladır sanıram. Bir gün, kilisə uşaqbağçasında tərbiyələnən Onella ondan soruşmuş:

- "Balonla tramvayın fərqi nədir ?"

O, ona :

- Biri göydə uçar, obiri isə yerüstündə sürülər. - cavab vermiş.

Yenə Onella:

- Balonlar uçan göydə tanrı da varmı? - soruşaraq, onun beynini qaraltmışmış.

O da:

- Onu bilməyə heş marağım yoxdur bala! “Var!” desənsə var, “Yox!” desənsə yox. -demiş.

O, Onellanın minlər yaşı olan sorğusuna cavab verəbilməyib, onu umsuq qoyduğu üçün, üzülmüş, günlərboyu onu düşünmüşdü. İndi isə, uçaqların eniş qalxışını durmadan bildirən səsyayan gürültüsü Onellayla qırmızı belbağılı qızın səsini boğur. Qızın yaydığı tanışlıq sevinci, səsyayan gürültüsünün ona verdiyi acığı basdırır. Onella artıq uşqunso küçələrdə oynamayır. O, qızın gözlərinə baxa qalır! Özünün meyxoşluğunu duyur! “Məynəşimin baxışlarımı bu?” deyə, Mələkənin səsinə darıxdığına sevinir! Havalımanı qaynaşan, daşan yolçularla əriyib, dumanlaşır. Ürəyinin partlanacağından bir an qorxur! Oturqacından havalımanının çıxış qapısına doğru sıçrayır. Sıradan bir taksı sürücüsünə:

- Ağsaraya ağbim.

- Mərhəba əfəndim.

- Əf edərsiniz qafam biraz qarışıq.

- Rica edərəm.

- ...

“Məynəşimi dənizə götürməliyəm. Özü də, Marmara dənizinə. Qayıqlara, balıqlara... “

- Məmləkətiniz nərəsi əfəndim?

- Hə... evet... mənmi. Bəlli olmaz canım! Məmləkətsizəm.

- Öylə olamaz!

- Inanmıyormusun? Güney azərbaycanlıyam!

- Vay... kardeşim mənim. Canım Azərbaycanım...!

Dinləməyir onu. Mələkəni düşünmək istəyir.

"On beş ildən sonra... "

- ...Biliyormusunuz... canım kardeşim! Mən də Azəri sayılıram! Qarslıyam!

- Evet! Doğru! Ərdəhanlılar da..., nasıl olursa, azərbaycanlı sayılıyorlar.

- Türkcəni ama çox güzəl qonuşuyorsunuz.

- Pək də gözəl deyil... idarə edər.

- Yox canım, çox iyi qonuşuyorsunuz. Nərədə öyrəndiniz pəki?

- Anadilim ya!

- Tamam da... Türkiyə türkcəsini...

Onun danışmağa maraqlı olmadığını qanan qarslı sürücü susur. Topqapıya yaxınlaşırlar. Ağsaraya azacıq daha qalmış. Sevinir o. Yenə Mələkə, taksının önündə uçur.

- İstanbulda nə yapacaqsınız?

- Ağsarayı gəzib, havaalanına dönəcəyəm. - çaşırır sürücü:

- Nasıl? Başqa məmləkətəmi uçacaqsınız?

- Evet. Avropadan gəliyorum.

O, Tehrana uçacağını söyləməyə utanır bir təhər! Sürücü ancaq simitliyinə salır:

- Pəki, nərəyə?

- Azərbaycana...Tahrana. - onun çaşqınlığı daha da artır:

- Tahranamı? Təhləkəli deyilmi?

- Bilmiyorum.

- ...

Ağsarayın çalpaşıq körpüləri görünür artıq.

- Enəcəyəm ağbim. Burası iyi. Biraz yürümək istiyor canım.

- Canım kardeşim, tamam! Şimdi. - deyə, direksiyonu sağa burur. Enib, dərin bir nəfəs alır. Dənizə doğru yürüyür. Olduqca sevincli bir duyğu içrədir:

- "Məynəşimlə dəniz qırağında Kölgəbalığı yeyəcəyik. Gözlərimizi qayıqların göy boyalarında dincəltdirəcəyik. Arpasularını içib, çəmənlikdə uzanacayıq. çəmən köklərinə qulaq yatıracayıq. Dənizi dənləyəcəyik. Yaş, qan, qayğı, qarabasma, qaranlıq, qarğış... bütün "q" ilə başlanan, içi qovurub, qırovlandıran sözcüklərə şən əkləyəcəyik!"

Dəniz qırağına yetişir. Sevdiyi çalışqan, Anadolu uşaqları, onun dilədiyi Kölgəbalıqlarını köz üstə atıb, dəniz qoxusuna, şəhvətso bir qoxu qatmışlar! Onlar buzluqlarda yatırdıqları arpasuyu qutularını turistlərə görsədərək:

- Buyurun kaltdır, xanmfəndim kuldur, kalt bira beş binə, beş binə, beş binə! - çağırırlar.

O, çörəkarası balıqla arpasuyu tapşırır. Soyuq arpasuyunu içə-içə, onlarla danışır...

İki balıqla beş qutu arpasuyu içdikdən sonra, danışmaqdan doymamışsa da, çəmənlikdə uzanmaq istəyi yerindən qalxıdır onu. Arpasuyu beynini deyil, zamanı durdurmuş sankı! Bir ağacın altında oturub, dənizə baxır!

Göy qayıqlarda kürək çəkilir suya sankı! Onları gözlərinin içinə çəkəbiləcəyi gücünü yoxlamaq istəməyir. Uzanıb, gözlərini göyə tikir. Göyü gözlərində yummaq istəyir. Gözlərini yummağa çalışır...

Gözlərini açar açmaz, yerindən atılır. "Saat neçə?" - soruşaraq, Ağsaraya doğru tələsik yeriməyinin ayırdına vardığında, çaşır! Biri onu arxadan çağırmış kimi durur! Dönür! Dənizi, qayıqları, balıqçıları... son görüşü olacaq-mışcasına, gözlərinin qıyısına almağa çalışır. Qocaman təpələrin döşündə qırmızı kərpiclərlə tikilən Qızqalasarayın göyə boyanmış havızında üzərmişcəsinə geri dönüb, cadəyə doğru yürüyür. Dəmir pərçilərdən atılmağa, təkər-asfalt qıcıltısından maşınlaşan cadədən üzərcəsinə uçur! Bir taksı durdurub, yirmi dəqiqədən sonra, yenə havalımanına yetişir. Bir saat daha vaxtı vardır. Yükləri gəldiyi uçaqdan gedəcəyi uçağa veriləcəyinə görə, düm düz havalımanının içgievlərindən birinə gedir. Heç bir şeyi düşünmək istəməyir. Limonlu vodka istəyir canı.

"Səsi boğuşdurub, qalınlaşdıran viski də olabilər! Beynimi düşünməkdən durdurabilməzsəm, yaşadığım bütün gözəllikləri düşünməyə dirənəcəyəm. Tutuqlanmaq, zından, qan damlaları, qarabasmalar... hamısını..." - içgievinin tuvaletinə doğru yeriyərək: "... hamısını, işədikdən sonra sifonu çəkəcəyəm!"

İşəyərək, düşündüklərinə gülür. Sevinir:

- Gülümsəməyi daha unudmadım! Onu mənə kimsə untduramaz! Qaranlıqda gülməyi öyrənmədim mən! Onu

bəlləyimdə özümlə güldürə-güldürə gətirdim!... Zındandan qorxanlar, dünyamızı çoxmu böyük görürlər?!

Əsrükdür o! Haçan uçağa mindiyini indi bilsə də, necə mindiyini, anımsamaq belə istəməyir! Başının üstündəki düymələrin hansısına basmışsa, uçağın qulluqçularından biri mutvaqdan çıxıb, onun oturduğu yerə doğru yeriyir! "Buyurun əfəndim!" söyləyən qızxanıma: "Bir viski! Lütfən!" deyə, cavab verir...

Uçaq Tehrana yaxınlaşdığında, pilot əfəndi İran qurallarını vurğulayır.

O, içgi yasağı, örtü örtmə gərəkliliyini eşitsə də, eşitməzlikdən gəlir:

- Nə olacaq oğlum? İç! Məynəşin səni sərxoş görmək istəyir!

Sərxoşdur o! Qorxunc qorxuları basdırmaq üçün: - "Yaşasın sərxoşluq! Yaşasın sərxoş Məynəşim!" - deyə, yolçuların yarısından çoxunu enməkdə gördüyündə, artıq enməli olduğunu qanır.

## 8

Onun sevinci, Tehranın beyin qaynatan isti-tüstülü küçələrini görəbildiyindən deyil. Üç saat pasaport kontrolunda, iki saat da yükkontrolunda tərləyə-tərləyə gözlədiyinə də heç aldırmayır. Yalnız, "pasdar"ların əlindən "qısır qaçmasına" sevinir! Özünü şənli, qururlu sanır. Yükkontrolundan çıxandan sonra, necə "pasdar"lardan qurtulduğuna, özünü çox qururlu duyur. Dilini qadağan edən pasdarlara Türk bir dilmac gətirtdirdiyinə, dilmacın araçılığıyla necə onlarla danışdığına çaş-baş qalmış indi. "Avropada yaşayan Güney azərbaycanlıya dılmac da gətirərmişlər! Ox...!" deyərək, darısqal havalımanındakı çadıralı, saqqallıları görüncə, keyfi pozulub, lap bətər darıxır. Eşiyə çıxmaq istəyir. Eşiyə çıxıb, Şapbadan qaçmaq duyğusu, olduqca güclənir içində! Pasdarlarla qorxmaz-qorxmaz danışan o, birdən-birə bir anlıq qorxuya bürünür: "Saqqallı, ağılsız, o bədbaxt "Pasdar"ların pis-eyrəti əllərinə geçseydi...!" deyə, dərin qorxulara girməməsi üçün, tökdüyü qorxuların qururunu duymağa çalışır. Beyni ancaq, yorğunluqdanmı, yoxsa bir durqunluqdan tərpənən kimi, onu incidir. "Pasdar-çadır-saqqal"ı düşündükcə, beyni isinir. İsindikcə, qızışır, qaynayır, əriyib, yanmadan, beyninin donu əriyir; yenə "Pasdar-çadır-saqqal"ı düşündükcə, isinir, qızışır, qaynayır, azqala beyninin yanığını qoxlayabiləcəkdir. çaş-çaşqın millətə tikdiyi gözlərinini kipriklərini çırpmağa da çalışsa, beyninin buyruqverən telləri qarışdığı üçün, ayaqlarını belə, vargücüylə çıxış qapısına doğru yeritdirir!

Eşiyə çıxıb, bir taksı çağırmaq istəyir. Ürək bulantısı, baş ağrısı amanını kəsir. Acıqlanır! İçini nifrət bürüyür. Çıxış qapısından çıxar-çıxmaz, diliylə dodaqlarını yalayaraq, ağzının tüpürcəklərini dilinin üstünə yığıb, acıqla tüpürür.

- " Qərdəş! Mənə də örgət, mən də tüpürüm də!" - Ağzını gülmək üçün əyən taksıcının biri, ona deyir.

O, gecənin boğucu istisinə aldırmayan taksıcıya baxıb, "Sən dəmi tüpürmək istəyirsən?" söyləyir.

Taksıcı ona doğru yeriyib, yükünü alaraq, "Hə! Niyə tüpürməyim. Mən də tüpürrəm!" deyə, taksının qapısını açır. "Buyurun, buyurun!"

Taksıya minib, dərin bir nəfəs alaraq, söykənir:

- "Xəstəliyi heç sağalmayan bu xərçəngli Tehrandan bir qurtulsam! Of!" - söylədiyində, sürücü qayıdıb, bir daha ona baxaraq, başını tovlayır:

- "Ağzıva gurban qərdəş! Qəribə söz dedin amma!"

Onun Mehrabad adlı zəhərli havalımanından qurtulmasını isə, boğucu isti, tüstü, saqqallı, çadıralı, örtülü, qara, tutqun, taksı-otomobillərin bibbibbibbibbiii düdükləri qarşılayırlar. Artıq, Türk taksıcıyla danışa-danışa, qaynayan beynini kontroluna alıb, duyduğu qurur şənliyinə sevinərək, sürücüsünü düm-düz Dəmiryolu meydanında tanıdığı bir hotelə doğru sürdürür.

Hoteldə o, özünü yatağına atdığında, saat beşi on beş dəqiqə geçir. Ayaqqabısını belə çıxarmadan, bir saat uzanıb, dincəlməyə çalışdıqdan sonra, yuyunub, qəynanaltı gətirtdirir. Mələkəgilə getməyə çox tələsir. Saat ona doğru

İnqilab meydanında bir taksıdan enir. On beş il öncəki biliyurt önündəki anılarını anımsamağa çalışdığında,

"Birinci amacım Məynəşi tapmaq, ikincisi isə, yenə də Məynəşi tapmaq olacaqdır! Tapdıqdan sonra, bu şəhərdən qaçmaqdan başqa, bir işim olmayacaqdır." - deyə, heç bir şeyi düşünmədən, Mələkənin oturduğu küçəni axtarmaq istəyir. İnqilab meydanından ayrılan İşçi cadəsinə doğru yeriyir. Gedəcəyi küçənin adını unutduğu üçün, kimsədən soruşmadan tapmalıdır. Küçələri bir-bir dolaşa-gəzə, Mələkələrin açıq göyə boyanmış qapılarını tapır. Qoyub getdiyi kimi heç dəyişməmiş. Heç bir şey dəyişməmiş. Qapının boyası belə! Onun çox əski olmasının sevinci, açıq göyün daha açıqlanması, yer-yer çürüməsi, cingirtili paslanışı, bir rəsimtək gözlərinə yayılır. Onu bir yol, Mələkə onun üzünə açıb, onu qucaqlamışdı. Sonra öpmüşdü. O da onun ağlamağından ağlamışdı.

O, Mələkəyə telefon eləyib, məmləkətdən qaçmalı olduğunu söylədikdə, onun gözyaşlarını görəbilməmişdi. Evə gəldikdə, bu qapını Mələkə açıb, qucaqlaşıb, bir təhər ağlaşmışdılar:

- "Pasdar"lar Məmmədgilin evinə tökülüblər. Onu tutub, "Evin" zındanına aparıblar! Çoxlu da əlyazılar pasdarların əlinə geçibdir...!" Mən qaçmalıyam sevgilim! Səni çox... sevirəm! Qaçmasam ancaq məni öldürərlər!" -söyləmişdi Mələkəyə. Sonralar qaça-qaça, sevdiyi İ. S. T. viroslarına yaxalanan beyni, Holandada çarpınmışdı!

İndi isə o, qapının sağında yerləşdirilmiş zəngə basmadan, saçlarını darayıb, köynəyinin yaxasını

yoxlamağını, daha unutmadığına çaşırır. Özənlə başbarmağını zəng düyməsinə basır. "Görəsən indi Sadıqmı qapını açacaq, yoxsa Mələkə? Məqsud da açabilər! Səsini sevdiyim Mənsur da olabilər!"

Qapını açan olmayır. Ayaq səsi belə eşidilməyir! Bir daha zili çalır. Yenə öz-özünə danışır:

- "Evdə olmazsalar! İndi Mələkə qapını açarsa, məni tanımazsa, "Buyurun! Kiminlə işiniz var?" - deyərsə..."

Bir ayaq səsi eşidir! Qulaq yatırır. Ayaq səsi yaxınlaşır. Ürəyinin səsini, necə basdırmağa çaşırmış. Bir yandan yaxınlaşan ayaq səsi, obir yandan ürəyinin döyüntüsü... Qapı açılır. əlli-əlli beş yaşlarında bir qadın! Göy, qırmızı boyalı, güllü-çiçəkli çərqətinin düyününü boğazında gəvşədərək:

- Kiminən işiz var oğlum?

- Sadıq... Mələkə... evdəmi xala?

- Sadıq kimdi?

- On beş il öncə Sadıqgil burda otururardılar.

- Yox nənə cani! Mən tanımaram!

- "Bağışlayın...," deməyi istəsə də, ağzını açmağa başarmayır. Başının dönməsini duyduqca, yana çəkilib, kürəklərini divara söykədib, alnının tərini silərək, göyə baxır. Qapının arasından ona baxan qadın, nə eləcəyinə çaşmış. Küçə, qapı, qadın, göy, divarlar olduqları yerdə, onun çevrəsində dönə-dönə başqa bir şeylərə dönüşürlər. Qadın nə düşünmüşsə, qapını açıq buraxıb, yeyin addımlarla həyətdən otağa sarı yeriyir. Qadının ayaq səsləri onun qulağında, küçə başında sağ-solunu itirən kimi, ayaqlarının

dönüb, yürüdüyü yönə yürüməkdə olduğunun fərqinə varır! Canı içgi istəyir. Vodka, viski, arpasuyu, çaxır... nə olur olsun... içgi olsun da, zəhər olsun! Dünyanın bütün pisliklərini addımlarının atışında yansılanır görür. Üzbənizini tüpürülmüş bir darğışa bənzədir. Üzünü, ikiayaqlı "insan" biçiminə girmiş bir qarğa duyur. Ayaqları, istidən əriyən asfalt üstündə sürütdənir artıq...

Yenə İnqilab meydanındadır. İsti, tüstü, aclıq qursağını sarsıtdıqca, sevinir. Ayaqlarının sürünməsinə acıqlanır. Tüpürməyə, ağzında tüpürcək belə qalmamış. Sərin, kölgəli bir yer axtarır. Günortanın istisi boynunu yandırıb, bənizini alazlayır. Nə düşünmüşsə, özünü gücləndirib, ağzını açmağa, danışmağa başarır. "Qarnımın aclığını tüstüylə doyuzdura bilsəm, bu istiyə dözərəm. Bu istini mən unudmamışam daha. Bu ölkədə çəkdiyim acılara, bu isti günəş, nə eləyəbilər ki? Bu meydanda mən, dəlik-dəlik leşlərdən axan qanların şorultusunu, qaynamasını, quruyub, yuyulub, süpürülməsini, tuvalet quyularına tökülməsini görmüşəm...!"

İstiyə aldırmayaraq, telefon dəftərində yazdığı bütün nömrələri gözdən geçirməyə başlayır. Sadığı tanıyan birini axtarır. On beş il ilişkisini kəsdiyi, telefonlaşmadığı, məktublaşmadığı, Sadığı tanıyan yoldaşlarından birini tapmaq istəyir. Ayda yeddi yol satılan telefon nömrələrlə kimsəni tapmadığında heç də çaşmamalıdır. Olduqca acıqlıdır. Özündən belə acıqlanır daha. "Adamlar da satılır bu ölkədə!" düşündüyündə, qayğı ürəyini basır. Geçitdə geçən qara çadraya bürünmüş qadınların təri, saqqal basmış, tutqun

geyintili ərkəklərin çuxurda gözükən gözləri, məzarlıqda yeriməyini beynində canlandırırlar...

Bir telefon bodkasına girir. Son şansını çevirir. Son telefon nömrəsi! Sarışın Məmmədin telefon nömrəsidir. Onu yığır. Bib çalınmağa başlanır. Sayır o bib çalınmasını. Bir... iki... üç... Bir uşaq səsini otaydan eşidir:

- Əyo, buyuyun, kimsiz! - son umudunun umudsuzluğa çöndüyünü ürəyinin döyüntüsündə duyur. "Məmməd evlənmişmi? Məmmədin uşağımı bu, yoxsa o da, telefon nömrəsini satmış?" - özünü toparlayır:

- Məmməd ağa evdəmi bala?

- Saxya, babamı çağıyım.

-Sağ ol oğlum! - deyə, dözümsüz gözləyir. Dəstəyi sıxı qulağına yapışdırdığından, qulağının ağrısına belə aldırmayır.

- Buyurun!

- Məmməd bəy?

- Buyurun, kim olasız? Özüməm!

- Sarışın Məmməd deyilmisən?

Çaşırdığındanmı, yoxsa tanımadığından, bir ara susduqdan sonra:

- Bəğişləyin! Mən tanımadım sizi!

Sevincdən uçmaqdadır o.

- Tanımazsan! tanımazsan! "Hər şeyin yenisi, dostun köhnəsi!" - demişlər.

- Bəğişləyin!

- Bağışlamasam?

Nə söylədiyinə çaşırmışcasına:

- Adızı diyin görüm kimsiz?

- Haqlısan! On beş ildən sonra, nəcə tanıyacaqsan?

- Ey vay... sən...

- Hə! İndi tanıdın!

- Hardasan?

- Qulağının dibində!

- Məni sərimisən sən?

- Sən öl, sərimə-mərimə yoxdur! İnqilab meydanındayam.

- Hardasan dur orda! Tərpəşmə, gəlirəm. Hansı tilfun bodkasındasan?

- Dur, tələsmə! Sonra görüşərik. Səndən Sadığı soruşacaqdım.

- Hansı Sadıq?

- Əhərli Sadıq da!

Səsi dəyişir onun. Biraz ciddiləşir:

- Dur orada, gəlirəm! - deyə, qarşı çıxmağa izin verməyir.

O, telefon bodkasından çıxır. Məmmədin gəlməsi çox sürməyir.

Bodkanın önündə bir sigaret çəkib, ikinci bir sigaretlə Məmmədlə görüşəcəyinin sevincini şənləmədən, gəlib yetişir o. Qucaqlaşıb, öpüşürlər.

Sarışın Məmmədin saçları ərkən ağarmış sankı. İki ön dişlərinin yeri boş, avırdları çuxurlandıqca, yanaqları portdaq

görünür. Güləndə, dişlərini gizlədməyə çalışdığını başarmayır.

- Buyur gedax evə. - deyir.

O ancaq, evə getmək istəməyir. On beş il öncə, günbatanlar görüşmə yerləri olan çayxanaya getməyə anlaşırlar. çayxananın açıq qapısından içəri girmədən:

- Çox dəyişilibsən! - Sarışın deyir.

- Hə! Üzümdən görünür! Sən də az dəyişməmişsən! Buyur içəri! - deyə, içəri girib, qapıya yaxın oturqaclara otururlar.

çayları tapşırdıqdan sonra, başlayır o:

- Evlərinə getdim; köçmüşlər onlar.

Onun kimlərdən danışdığını bilə-bilə, sağ-solda oturan müştərilərə baxaraq:

- Kimlər? - soruşur ondan.

- Sadıqları deyirəm da.

- Sadığınan nə işin vardı?

- Görüşmək istəyirəm.

- On beş ildən sora niyə gəldin?

- Sevinmədinmi?

- Sərimisən məni! Olar ki, söyünmiyəm?

- Sadığı harada tapabilərəm?

Bir oğlan çayları gətirir. Məmməd, tələsik bir çay alıb, nəlbəkisinə boşaldaraq, əlinin titrəməsini gizlədəbilməyir.

- Məmməd! - deyir o.

- Mən bilmirəm.

- Bildiklərini məndən gizlədirsən.

Acıqlanır o:

- On beş ildən sora nəcur olub, Sadıq yadıva düşüb? Sadığa görə gəlmisənsə, gəldiyin yoldan da qeyit!

- Nə demək?

- Mənim işim dəyil!

- Necə olar ki, sənin işin olmaya?

- Danışabilmirəm! Zor demə! Teymuru tanıyısan!

- Teymur kim?

- Mən onun tilfun nömrəsin verrəm sənə; sən özün nə istirsən ondan soruş.

- Bu olmadı! Sən mənə Sadığın nömrəsini ver.

- Sadığın nə tilfun nömrəsi var, nə də... - sözünü kəsir o. Susur. Darıxmış gözükür...

- Nə də...?

- Nə də adrisi var məndə.

Daha da üstünə varmağa, sıxışdırmağa gönlü razılaşmayır. İki çay daha tapşırır. Sarışın, Teymurun savaşda öldürülmüş Əsğər yoldaşının qardaşı olduğunu söyləyərək, onun telefon nömrəsini yazdırır ona.

Onun iş-gücündən, evlənib, evlənmədiyindən soruşur. Gün batmaqdadır artıq. Ayağa galxırlar:

- Oları ötür getsin! Bu gecə mənim qonağımsan! Heç yerə getmiyacaxsan! - deyir Sarışın. O ancaq, Teymura telefon eləyəcəyini söyləyib, başqa bir gecə gələcəyinə söz verdikdən sonra, sağollaşıb, ayrılır.

Azadlıq meydanına doğru yeriyərək, Məmmədi düşünür. Məmməd ilə ancaq, yenə bu gecə görüşəcəyinə arxayındır. Onun bir saat sonra nə qılacağını, kimsə bilməz. Onun bu özəlliyini o, devrimdən qabaq da tanıyırdı. O, hamı yerdə olar, heç yerdə də göründürməzdi özünü. Ona "Ölümallası!" deyənə, "Ölümallası mən dəyləm! Çox danışma! Durram düz əzrayil kimi, canıvı allam!" deyə, gülərdi. Onu tanıdığı üçün, çayxanadan ayrıldıqdan sonra, onun Teymurgilə gedəcəyinə belə, heç çaşmayır.

## 9

**O**, Teymurdan Sadığı soruşmağı üçün, bir telefonbudkasına girdiyinə sevinirəm! Sarışın Məmmədin Sadıqdan soraq verməməsi, onun nıgaranlığını qat-qat artırmış. Telefon dəstəyini götürüb, Teymurun nömrəsini yığır. Dördüncü bib çalar-çalmaz:

- Əlo, buyurun!

- Teymur bəy?

- Bəli, bəli özüməm. Siz Məmməd ağanın yoldaşı deyilsiz...?

- Hə, özüməm. Hardan bildiniz?

- Biraz bundan qabaq Məmməd ağa tilfun elədi. Əsğərinən sizin yoldaş olduğuzu dedi mənə.

- Başınız sağ olsun! Uzaqdan-uzağa sizin dərdinizə şərik olammadım. Bağışlayın! Səbirli olasınız! Əsğər mənim lap yaxın yoldaşlarımdandı.

- Sağ olun!

- Sizinlə görüşəbilərəmmi?

- Buyurun, xahiş eliyirəm! Öz evizdi! Bir acı çaymızı içərsiz.

- Sağ olun! Sizə zəhmət olar! Mən Sadığı axtarıram...! Teymur onun sözünü kəsir:

- Yaxından danışsaq, daha yaxçı olar. Biz Nazıyabadda oturrux. Elə küçəmizin adını taksıçıya desəz, özü gətirər sizi küçəmizə.

- Eləysə, gələrəm. ... Məmməd dəmi gələcək?

- Olabilər. Ancaq bir söz demədi.

- Deməz, deməz o!

Teymur, küçələrinin adını ona yazdırdıqdan sonra sağollaşırlar.

Telefon budkasından çıxır o. Bir çox şeyləri ondan gizlətdiklərinə arxayın olmuş. Bir oyuna girmiş sanır özünü. Nə demək, "Yaxından danışsaq..."! Düşünməyə çalışır. Gün batmış artıq. Bir taksı durdurur:

- Hara sürməliyəm? - soruşur sürücü.

- Nazıyabad! - deyə minir. Sürücü gaza basmaq üzərə, bir qadın taksının önündən dönüb, sürücüyə qaş-göz edərək, minmək istədiyini bildirməyə çalışır. Arxadan taksılar düdük çalırlar. Sürücü isə:

- Dərbəstdir xanım! - deyə, onu tanırmışcasına, "Olmaz xanım!" çığırıb, deyir.

Qadın isə, qara çadırasını əzilə-əzilə açır. çılpaq döşlərini titrədə-titrədə:

- H...oy mənə bir bax! Mən də dərbəstəm! –deyib, yeyincəsinə minmək istədiyində, sürücü gaza basır. yimi metrə sürmədən, gülüb:

- Görüsən! Bular da çadralı qəhbələrdəndi! İstisən götürək, bizə fərq eləməz! Amma sənə çoxa başa gələr! -deyir.

- Sağ olun dadaş! Qəhbə-məhbə istəmirəm. Məni Nazıyabada yetirsən, mənim dediyim olar!

Nazıyabadda, Teymurgilin qapısında taksıdan enir. Qapılarını tabıb, çaldığında, yirmi sekiz-otuz yaşında bir oğlan qapını açıb, onu içəriyə buyur edərək, əlini uzadıb,

“Mən Teymuram!” deyir. Onunla əl verərək, içəriyə geçir. Teymur, yündən toxunmuş xalçalarla döşənmiş dalanın sağındakı otağı göstərərək, “Buyurun! Buyurun! Qəribə içəridə yox!”

Otağa geçirlər. Sarışın Məmməd oturduğu yerdən qalxıb, əl verir. Teymur sağ əliylə muxəttələri görsədərək:

“Buyurun əyləşin! Xoş gəldiz!” deyir.

Məmməd:

- Yerdə oturmağı day başarmırsan! Görürəm, yadından çıxadıbsan! Otur, otur! çoxdandı oturmamışsan yerə. söykən muxəttələrə bir görüm! -deyə, gülür.

Oturub, dizlərini yan-yana qadlayır! Sağ dirsəyini muxəttələrə söykədərək, otaq qapısının qarşısında bir balkonun olmamasına qayğılanır. Sarışın da oturub, dirsəyini muxəttəyə söykədir. Teymur ayaqüstə:

- Canız nə istir. çaydan, sudan... Aclığız yoxdu? -soruşur.

- Gələndən bəri, çay içə-içə, tiryəkilərə bənzəmişəm! Bir livan sərin su gətirsən yaxçı olar. - gülərək deyir.

- Sən nə içisən? - Məmməddən soruşur

- O araqdan qalır daha?

- Hə, biraz daha qalıbdı. Gətirim!

- Hələ qalsın soraya! Onun da başına daş salarıq!

- Nə qalsın sonraya? - dillənir o.

- Arağı deyir da! - Teymur cavab verir.

Teymurla öz-böz olmuşcasına:

- Qadan alım sənin Teymur bəy! Araq vardırsa, bə nə durmuşsan. Gətir içək də! - deyir.

- Düz diyir da! Nəki xaricədə az içibdi yazıq! "Alışmış, qudurmuşdan bətər olar!" diyərlər! - Məmməd gülə-gülə deyir. Teymur da gülərək, "Baş üstə!" deyib, otaqdan çıxır. Məmməd özündən söz açaraq, danışmağa başlayır. O, onun sözlərini dinləyərək, bir sigaret alışdırır. çox sürmədən, əlində qoymuş kimi Teymur, yekə bir siniylə içəri girir. Sinidəki bir parç buzlu su, istəkanlar, qaçlanmış xiyarlar, yoğurt, duz, bir də Urmunun evdə çəkilmiş üzüm arağını onların önündə yerə qoyaraq, özü də oturur. Onların sigaretlərini görər-görməz:

- Siz buyurun! Məmməd istəkanları sən doldur; mən də bir çubuqaltı gətirim gəlim.

Məmməd isə, danışa-danışa, arağı istəkanlara süzməyə başlayır. Teymur qayıdıb, əlində iki külqabı oturur. Məmməd istəkanın birini ona, birini də Teymura verib, öz istəkanını götürərək, sağlıq verir. İçişmələr başlanır. İçişə-içişə, beyinlər qızışır. Qızışdıqdan sonra, Sarışının çayxanada "bilmirəm, bilmirəm"lərinin anlamı ortaya çıxır. Saatlar boyu düşündüklərini, qısa tümləclərə sığdırır:

- "Sən istisən, Sadığı doğrudan biləsən ki, hardadır?

- Bəli...!

- Kargər xiyavanın böyründə bir sandiviç dükanı var. Sən bugün ordan keşdin. Ancaq onun yağlı, kirli qapısının sağında oturan birini görəbilmədin! Onun üç il boyuncan gəlib-gedənlərə baxmadan, bir əliynən balaca bir radiyonu qulağına yapışdıraraq, danışdıqlarını bir dinləseydin! Onun

ağzından axan tüpürcəkləri, saqqalında quruyan yumurta, pendir, çörək tikələrini bir görseydin! Hələ onun Haydegerdən, Niçədən, Musolinidən, kilsənin Avrupada yandırdığı qadınlardan, giyotindən... danışdığını bir eşitseydin. "Niçə bir poxudu yedi dayısıynan ey! Külə Hitler bə niyə ona baxıb, cöhüdlərin bit-birələrini yeyirdi. Hitler köpəyoğlu bilmirdi ki, Marksın ağlı saqqalındadı. Onun ağlı saqqalında olmasaydı, nəvəsi Elizabet Marks, Froyd əminin mankəni olmazdı ki! Zeynəb xanım da dünən gecə şortunu çıxarıb, Ağsarayda bir kəpənəyi qovalaya-qovalaya "Ay Klintenim! Canım mənim! Uç gəl düş şortuma!" deməzdi ki. Gördüz indi mən oların hamısından ağıllıyam! Saqqalımda pendir-çörək gizlədirəm ki, aclıq oldu, qıtlıqda qalmiyam. İndi bir malla da mənə desə, şortuvu çıxat, çıxatmaram ki! Bə türklüyün geyrəti-namısı harda qaldı ey...?"

On beş ildən sora sən gəlib, indi o Sadığı axtarırsan? Onun ortancıl qərdəşi Mənsur öldürüləndən üç ay qabaq, bala qərdəşi Məqsudu Evin zındanında tikə-tikə eliyib, leşini də vermədilər! Sadığı dəlixanada zincirriyib, dirsəklərinə iynə soxanda, şok verəndə səni istiyirdim! Mələkəyə də görürəm çox darıxmışsan! Sekiz il Evində zından çəkəndə, işkəncələrdən qan qusanda hardaydın sən...?"

Məmmədin çox duyğulu, acıqlı danışdığını görən Teymur, istəkanlara araq süzüb, onlara buyur edərək, sözü dəyişdirməyə çalışır. Ancaq Teymur da ən sonunda sözünü zındana, işkəncəyə, Əsğər qardaşının öldürülməsinə, Pasdarların Evin zındanında balaca qardaşı Vahidi işkəncə elədikdən sonra, sigaretinən üzünü yandırdıqlarına çevirir....

O isə, onların nə dediklərini, nələr anlatdıqlarını düşünmək istəsə də, Urmu arağı beynini uçurtmuş. Elə hoyuxmuş ki, ağlamaq istədiyində belə, ağlayabilməyir! Yatmaq istəyir...

## 10

**O**, gecəyarısı ayılır. Su gətirmək üçün, yatağından qalxıb, yuxulu gözləriylə buzdolabını axtarır. Onu tapmadığına heyran qalır. Otağın ortasında durur. Harada olduğunu düşünür. Qaranlıqda gözləri dərinləşir. Şırım-şırım əriyən, boyalaşan, köpükləşən, dumanlaşan kitablar, qorxudur onu gözləriylə birlikdə! Dumanlaşan kitablar divarları özünə bürüyüb, otaqlara yayılaraq, bir meydan biçiminə girir. Meydanda yaraqlı atlılar, at kişnəmələri, barut qoxusu, çığırtılar, açılan tapança-tüfənglər səsi onu hürkdürür. Meydan onun gördüyü savaş meydanlara heç bənzəməyir. Elənçi meydanı o, televisiyonda gördüyü əski savaş meydanlarına bənzədir.

Meydanın qarşı küçəsinin təkində görünən çay körpüsündən bir qadın çırım-çılpaq, daranmamış, uzun saçlarıyla bağıraraq, meydana doğru qaçmaqdadır. Qadının çırım-çılpaqlığına çaşmadan, onun arxasındakı çay körpüsünü görər-görməz, "Saman meydanı"nı anımsadığına, çaş-baş qalır.

- "Təbrizin Saman meydanı! Acıçay...!"

Ucadan çığırır o. Qadın isə, Saman meydanına yetişməkdədir. Meydanın ortasında, fars əsgərləri, tutuqladıqları "Demokrat"ları asmaqdadırlar. Meydanın uc-bucaqlarında qaçanlar, arxadan qurquşuma bağlanırlar. Meydanın sol bucağında, bir yüzbaşı,

- "Yaşasın Azərbaycan Cumhuriyyəti!" - bağıran "Qızılbaş Atlıları"nın birini, asmadan dilini kəsib, qəribə bir

nifrətlə süngüsünü çəkib, ürəyinə sancır! Qadın meydana yetişmədən, ayaqları yerdən üzülür. Əlləri iki qanad kimi süzülüb, dumanlı meydanın üstündə uçmağa başlayır.

O, vargücünü beyninə yükləyib, dumanlar içrə gözdən qaçırdığı qadını görməyə çalışır. Şapbadan, biri sağ əlindən yapışır. Çaş-başlanmış o, dönüb baxmaq istədiyində, göyə uçurdulur. Dönüb baxabildiyində, Mələkə göz yaşlarını ondan gizlətdirmək üçün, onun sol əlini buraxıb, belini qucaqlayaraq, başını onun döşünə söykəndirir. Göz yaşları, onun ürəyini sıxıb, boğazını düyünləndirir. O ancaq Mələkəni ovundurmaq üçün, ağlamamağa çalışır! Onun göz yaşlarını gördüyünü, bildirmədən, onu qucaqlayaraq, uçmağa davam eləyir.

Onların uçuşu, dumanları daha da çənləşdirir. Meydanın üstündə uça-uça, çənlər içrə boğulan meydandakı pasdarlar höykürtüsü, tanklar gürültüsü, arvad-uşaq çığırtısı, açılan tapança-tüfənglər səsi, düşən qurşunlananlar zəccəsi, əl-ayaq altında qalan uşaqların qorxu səsləri, anaların ağlamaları, çığır-bağırtıları eşidilir. Onlar barut qoxusunu belə qoxladıqlarında, qorxunc savaş xatirələri beyinlərində anımsanır. O, Mələkənin qorxulu xatirələrinin necəliyini düşünür. Artıq ürəyinin partdayacağını his eləyir. Bağırmasa, boğazının düyünləri dəlinəcəklər indi. Mələkənin belini, xatirələrini buraxıb ucadan bağırır. Onun səsi, küləkmişcəsinə dumanları önlərindən sovurur. Dumanlar sovrula-sovrula uzaqlaşdıqca, onların qanad kimi süzülmüş əllərindən, göyqurşağı boyaları meydana saçılır! Biraz öncə

savaşılan meydanın ortasında, ağ mərmərdən yonulmuş bir atlının heykəli görünür. Mələkə heykəli ona görsədərək:

- Bax! Böyükbabamı görürsənmi? - deyir.

- Hə, görürəm! İlkyol mən, bir yüzbaşı onun dilini kəsəndən sonra süngüsüylə öldürdüyündə gördüm. Niyə onu basdırmamışlar daha?

- Onu biz basdırmalıyıq!

- Bax! O qızı görürmüsən?

- Hə! O, çiçək əkir orada! Onun əkdiyi çiçəklər, sənin bağçandakı çiçəklərdən deyilmi?

- Hə! Bax necə də o qız sənə bənzəyir!

- Mənəmi?

- Hə! Sənə!

- Nə demək istəyirsən?

- Göy bitiyi unutdunmu? Onu sənə verdiyimdə, səninlə dölləşmədikmi?

- ...

O, yuxudan oyanırmışcasına, gözbəbəkləri tərpənir. Kiprikləri qamaşır. Boğazı yanır. Heç ayılmamışcasına, gözlərini açıb, bilgisayarında yazdığı Göy bitiyi oxumaq üçün, "Mamacç" adlandırdığı dosiyəni, iki yol tıqlayır. Sarışın Məmmədi düşünmək istəyir. Mələkəni qucaqlayıb, qucağında bir bəbək kimi ağlamaq istəyir. Birdənbirə, yox olma istəyi beynini basır...! Mamacç açılır. Monitorda biraz öncə uçduğu Saman meydanı görüntülənir! Heç çaşmadan sağ-soluna baxaraq, Mələkəni axtarır. Duman, yenidən yeri göyü çənləndirir. Nə meydan, nə savaş, nə heykəl, nə də

Mələkə... Heç bir nəsnə görünməyir. Heçlikötəsinə ərmişcəsinə, yerçəkimindən qurtulmuş sanır özünü:

- " Boşluq sürəcinimi yaşayıram mən indi? Ox! Dilədiyim yox olmadırmı bu?" - soruşaraq, ansızın dumanların içindən bir səs eşidir. Çaşdığından anqıb, hoyuxur! Çənlərin içində səsin yiyəsini axtarır. Dumandan başqa heç bir nəsnə görünməyir. Eşitdiyi səs yenidən ucalır:

- "Sənə eşq olsun! Məni axtarmaqdan yorulmadınmı daha? Buraya varmağı, necə başardın?"

O, səs yiyəsini axtararaq, dumanlar çəkilib, bir çöllük görünür. Orada o, sanırılmaz qocaman bir ağacı ayırt etdiyində, yenə o səsi eşidir:

- "O dağdağan ağacını görürsənmi? "

O, ağaca yaxınlaşdıqda, ondan qorxunc bir qorxu buğlanıb, onu bürüyür. Nədənsə, Naymeyxendəki Engin dostunun sözü, anımsa bəlləyini qıdıqlayır:

- "Anam Anqarada ikən məni qaş-kirpiksiz doğurduğu üçün, mənə qara süd əmzirmişdi!

İndi o, dağdağanın qalın bir dalında oturduğunu aydıncasına duyabilir. Biraz öncə eşitdiyi səsin yiyəsini axtarma istəyi yenidən içində yoğunlaşır.

O isə, durmadan danışır:

- "Bu dağdağan ağacı daha göyərməmişdi! Sən Daha düş belə olmamışdın! Yer, göy, su, pöhrüz, körküz sənin düşlərində qaynayırdı daha! Sən onda bir qarabasma idin! Varlıqlar isə, yaranmaq, yoxlanmaq, qorunmaq, qullanılmaq

üçün, sənin şirin düşlərində qara basarlardı! Sən qarabasmalıydın daha!"

Onun qorxusu tökülmüş artıq sanıram! Danışanın səsi getdikcən bəlləyindəki Mələkə səsini qulağına oxşatdırır:

- "O dağdağanı qucaqlayan suyu görürmüsən? Sən onun diblərində pöhrüz atını çapdırmağını anımsayamazsan artıq! Sən Arananı da bilməzsən artıq! Sən onda, bir Mamaç belə olmamışdın daha! Onda, göydə nə gücqaynağı, nə də sevinc vardı!"

O, birinci yol Mamac sözcüyünü eşidmişcəsinə:

- "Mamac daha nədir?" -soruşur.

Mələkə sandığı o, cavab vermədən, bir nəfəsə anlatır:

- "Aranan, necə qullanmağı çox incə bilərdi. O, gücqaynağıyla sevincə ərməkdən ötürü, göydən yoğurduğu Işıl tomurcuqdan, Günçəkini göyərtdi. Günçəkinlə sevişər, günəşi əmməklə, özünə güc qaynazardı! Səni isə o, gücqaynağı törətmək üçün, sonralar oluşdurdu! O, Boşdöl ilə Gündöldən törətdiyi tomurcuqla, Ayrağı göyərtdi! Ayrağı Günçəkin əmə-əmə, onunla sevişər, ışıqlanardı! Sən isə, qara basmağa başlamaq üçün, qaranlığından çıxıb, Arananın düşlərinə girdin....!"

O, çəpik çalaraq:

- "Sağ ol! Bilmədiklərimi də sən öyrət mənə!" -onu alqışlayıb, gülsə də, o eşitməzlikdən gələrək, öyküsünü anlatır:

- "Aranan, döləkçə ulduzlara ayışığıyla qaranlıq əmdirə-əmdirə onlara Səpiyi göyərtdi! Sonra o, su evrənini düşündü!

Düşünə-düşünə suyu qorumaq, qulluğuna almaq, onun üzərində yeni bir varlıq evrəni yaratmaq düşüncəsinə vardı. Sən onda, Toqurc dönəmindeydin! Daha dözməliydin! O, günəş, ay, ulduz, ışıq, qaranlıq, zıq, su güclərindən, Ətrəc adlı tomurcuqlar göyərtdi. Ətrəclrəi su altında əkdirmək üçün, Səlcuğun sağ-sol qoğunda iki dəlikçə açdı! Ətrəclərin bir dişi, bir ərkək, bir də ərgəcindən onun qoq dəlikçələrinə gəvişdirib, Yaxıclarıyla qoqlarnı yaxdı! Gəvişlər dəlikçələrdə Yaxıcları əmərək, böyüyə-böyüyə, onun sağ-sol qoqlarında siyəclərə dönüşdülər! Siyəcli Səlcuq gücqaynağını yalnız körküzlərin qanından alabilərdi...

- "Körküzlər suda yaşayan bugünkü köpəkbalıqların ulu babalarımı sayılar? Nədən bildiklərimi mənə anlatırsan?" - soruşaraq, nə duymuşsa, gülərək, "Mənim qoqlarımda da siyəc oluşdurabilərmisən?" deyə, qas-qas gülür o! O, onun gülməkdən geçindiyinə aldırmadan, öyküsünə dəvam edir:

- "O Səlcuğa, Ətrəci su altındakı Qaradaşda əkməyə buyruq verdi. O, saysız minminilliklərdən sonra Ətrəcin dağdağan adlı bir gücqaynağı olacağını bildiyi üçün, Alkişini çağırtdırıb, pöhrüzlərin Qırqanad adlı pöhrüzü qorumaq üçün, onu da siyəcli etdiyində, təkcə uçağan Qırqanad atpöhrüzü düşünməyirdi. O, dağdağan yarpaqlarını yeyəbilən bir Sərşən adlını da düşünürdü! Sən isə onda, Sərşəni sevməyə başlamışdın!"

- "Yalandır! Yalan! Mən bu sözlərin minini sənin üçün quraşdıraram. Birini dinlə! "Ölümsüzlüyə ərdiyiniz bir çağda, nə millət, nə də devlət qoca-qarılarla nə edəcəklərini bilməyəcəklər! Sən qurda bənzər bir makına yaratdıqdan

sonra, onlar: "Qurdlar onları yesin!" deyə, səni ölüm tanrısı qılacaqlar! Sən onda səhərlər oturub, yazacaqsan:

- "Mən saat 7.15 ayılar, əl-üzümü yuyar, geyinmədən qəynanaltı elər, saat 7.40 də yelatımı minib, 15 dəqiqə sürdükdən sonra, uşaqbağçasına yetişərdim! Yolda gedərkən, uşaqlar gəlib də qapıda qalmamaları üçün çox tələsərdim! Saat 10-11 arası uşaqları parka apardıqda, heç tələsməzdim! Oynaya...gülə...çığıra...əl-ələ Yaşıl parka gedərdik...! Bilgisayarımda mən, o parkın necəliyini çizmişəm. Parkın üstündəki Anabilgisayar burcundan Telböcəklərlə uşaqların oyununu, onların nələrlə necə oynadıqlarının səbəbini, sataşmalarını, necə yemək yediklərini belə kontrol edərək, bilgisayara verib, hərəsinə uyqun Köpüclər törənilərdi...!"

- "Nə isə! Sözün nədir? Nəyi anlatmaq istəyirsən? Sən bir dinlə! Öncələrdə də sən qulaq asmazdın mənə! Sənə Sərşəndən danışmamı istəməzmisən? Berliner cadəsindəki Rayndan çıxıb, gələn qızdan vaz geçirəm! Sərşəndən deyirəm sənə. Dinlə! Aranan, yemyeyər Sərşəni yoxlamaq üçün, onu Alkişinlə Tarqıca verdi. Sən onda, onun ulduzəmərlikdən yemyeyərliyə ərəcəyini, onunla birgün qaçacağını, düşlərində belə görəmməzdin! Sən ancaq dözməliydin! Sərşənlə sən, qaçmalı olmadan, Mamacçlar öldürülməli, savaşlar başlanmalıydı. Sən...

-

- "Mənmi? Onunla mən qaçmış olsam, heç unudarammı? Sənə mən parkdakı uşaqların Köpüc böcəkləriylə oynamalarını daha söyləmədim. Sən V. E. L.ə viruslarını tanısan, Sərşən-mərşəni..."

-

- "Mən sənə səndən danışıram. Sən isə mənə, sənləri anlatırsan! Sənin bəlləyin dəyişdirilmiş! Sən, Yalıqla Dumazgənin minlərcə törətdikləri Mamacçlardan birisən! Sərşənin səni sevərdiliyinə indi mən daha qısqanmaram! Aranan, sizin birgün birlikdə su üzünə qaçacağınızı düşünməmişdi. Yalnız Sərşəni su üzündəki dağdağan yarpaqlarından yedirdərək, yoxlayacaqdı. Mamacçları o, ancaq Ərqiş çerisinin gücqaynağı olaraq, törətdirmişdi."

-

- "Ərqişmi? Sən virus daşıyan qayış köpüclərini bir görəbilsən, Ərqiş-mərqişdən danışmazsan! Köpüclərin biryolluq beyinləri, Telböcəklərinin uşaqlardan tanımladıqları informasiyalardan oluşdurular. Sonra onlar parkdakı, uşaqbağçasındakı, açıq pəncərələr önündə oynayan... uşaqlara göndərilər..."

-

- "Telköpüclərini sən sonraya burax! Sən Ərqişin nələr elədiyini bir dinlə! Ərqişin birgün ən böyük düşmənin olacağını, Mamacəmərci çerisini quracağını sən bilməyirdin onda! O, dişi Mamacları Mamacəmərlərə, ərkək Mamaçları çeri başçılarına qulluqçu olaraq, bağışlarkən, səni siyəcli olduğun üçün, Günçəkinə bağış etdi. Sən artıq Günçəkinin Mamaçıydın! O, səni Üzcüş Mamaç adlandıraraq, özünə çavış qıldı. Ərqiş, dağdağanın gücqaynağını yiyələnmək istəyirdi! Onun üçün də, bütün Mamacçlarını qullanaraq, uçağan Qırqanadı oğurlamağa, duzaqlar qurardı! Ona baş əyməyən Mamacçların ərkəyini öldürtdürüb, dişilərini isə,

məmələrindən qan sora-sora, onları əmib, tükədərdi. İsyancı Mamac tapmadısa, Mamaçların, Mamaclardan sağdıqları süd-qanı içərdi.

O, Səlcuqla Səpiyi azdırıb, Körküzlərlə ulduzların gücünü qullanaraq, Arananla Alkişindən Qırqanadı çalmağı düşünürdü. O, körpəliyində günəş, ulduz, ay əmdiyi üçün, Mamacəmərliyə başladığından, əmzikliyi sevməmişdi. O, Mamac əmərikən, içində bir yemə duyğusu güclənirdi. Oysa, yem, yemə, yemək sözcükləri oluşmamışdı daha! O, Arananın yer-yer-yer uğultularının anlamını belə, qanabilməyirdi! Ərqişin amacı ancaq, uçağan Qırqanadla Körküzləri buyruğuna almaqla, yeni gücqaynağının evrənindən günəşə, aya, ulduzlara, suya, Mamaçlara, varlıqlar evrəninə yol tapmaqdi! Onun bu dəliso qarabasmasının sonucu, yüzminlər Mamacçın öldürülməsinə səbəb oldu! O zaman Ərqişin gizli savaşları artıq açığa çıxdı. Qorxunc bir savaşın başlanqıcıydı! Dumazgən, Yalıqla əmişə-əmişə, Mamacç törətməkdə idi. Ərqiş isə, sarayında bir Mamacı əmməkdə idi. Onun Mamaçları, Mamaclardan sağıb, çəkdikləri Mımız adlı çaxırları qonaqlara süzürdülər. Ərqiş, əmdiyi Mamacı, Səlcuğa sunaraq, tartışmaları şənləndirməyə çalışırdı. Onların antlaşmalarını Sürüş adlı Günçəkinin Mamaçı casuzluq elədikdə, sən Günçəkinin sarayındaydın! Tarqıc isə, suların altında, Körküzləriylə Qırqanadı axtarmaqdaydı! Alkişin də, suların altında Qırqanadı gizlətdiyi Qaradaş köhlənlərinə doğru atpöhrüzünün belindəydi! Günçəkin isə, Sürüşdən aldığı xəbərlərə görə, səni çağırtdırıb, Alkişinə söz göndərdi. Tarqıc Qırqanadı axtara-

axtara, Alkişinlə üz-üzə gəldikdə, sən onları uzaqdan görürdün. Sən, Ərqişlə Səlcuğun antlaşmalarını onlara söylədikdən sonra, Alkişin böyük bir savaşa girəcəyini qandı. Səni Günçəkindən yardım istəməyə göndərdiyindən sonra, Sərşəni gətirtdirməyə Tarqıca buyruq verdi. Ərqişin Mamaçları, səni öldürmək istədiklərində isə, Qaradaşa sürən Tarqıcla Sərşən səni onların əlindən qurtarıb, özləriylə qaçırtdılar. Sən də, Sərşəni sevdiyin üçün, bütün gizli xəbərləri onlardan əsirgəmədin."

- "Bir saniyə sus görüm! Mənim beynimi qarışdırırsan! Mən Saman meydanında Mələkəni axtarırdım!... Sən mənə..."

- "Mənə maraqlanma! Sən oradan buraya varmağı başardın! İndi dallarında oturduğun bu dağdağan ağacını görürmüsən? Yüksək, qocaman bacaq-bucaqları onun su altında, köksü su üstündədir. Onun dal-yarpaqlarına, kimsənin əli ərməzdi. Onu yalnız Aranan bilərdi. Oraya varmağı isə, yalnız Qırqanad başarardı. Alkişin də bunu bildiyi üçün, Qırqanadı gizlətdiyi Qaradaş köhlənlərində Tarqıcla Sərşəni gözləyirdi. Tarqıcla sərşənin dönüşündə, səni də onların yanında gördüyündə, sevindi o. O ancaq Sərşənlə Tarqıcın istəkləri üzərə, sənin onlarla qaçmağına izin verdi. Siz dağdağana doğru üzərək, Ərqiş də savaşlar açıb, Mamaçlar öldürtdürürdü! Siz, su üzünə vardıqdan sonra Alkişin, sənlə Sərşənin dağdağan yarpaqlarını yeməli olacağınızı Tarqıca söylədi. O, dağdağanın ölüm ağacı olduğunu da Tarqıcdan gizlətmişdi! Nədənsə Aranan, bu ağacın yarpaqlarını gövşəyən "Mamacç"a:

- “Sən ot-yarpaq gövşəyə-gövşəyə böyünəcək, büyünəcək, böyüyəcəksən! Onu gövşəyə-gövşəyə, yediyin yarpağın yemi olacaqsan! Çürünərək, çürüdəcəksən özünü! Cəmdəyin sənin dağdağan kötüklərinin yemi ola-ola, öz yemin olacaqsan!” - söyləmişdi.”

-“Aranan, çürüməkdən başqa sizə heç bir seçənək buraxmamışdısa da, sizin özyemçiliyə ərdiyinizi alqışladı! Siz dağdağanın yarpaqlarını yemləməyə gərəkliydiniz! Yemləyə yemləyə siz, yeni bir Mamacç törəməsini yaratmağa çalışdınız. Sən onda, yemləşən bir Yemyeyər Mamaçdın daha! Mən onda, bir düş-qarabasma olaraq, sənin yuxularına girdim. Qançıçənin, Soğurun, dədə Dumruğun, Sadığın, Məynəşin düşlərini, mən sənə sonralar düşləndirdim. Onda mən sənin Mələşindim! Sənin Mələkəndim! Sənin sevgili xatınlar xatınındım! Sənin gülün, çiçəyin, quzun, otdaşındım! Saman meydanındakı Mələkəni artıq...!”

- O, onun sözünü kəsib, danışmaq istədiyində, qapı açılıb, Teymur içəriyə girir.

- “Səhəriz xeyir olsun! Çığırtı səsi eşitdim! Qapını çaldım, səs vermədiz! Bağışlayasız! Yaxçı yatabilməmişsiz sanıram!”

Bərə-bərə Teymurun gözlərinə baxır o. Başı ağrıyır. Kiprikləri bulaşmış. Onun kim olduğunu seçəbilməyir.

- Bə niyə belə quru yerdə yatıbsız? Qəlyanaltı hazırdı. deyib, otaqdan çıxır.

## 11

O, otağın ortasında, başağrı içrə, harada olduğunu belə ayırt edəbilməyir. Yuxuyla ayıqlığı qarışdıran o:

- "Mamac sevgilim! Saman meydanı! Xatınlar...! Kim? Harda? Onlar kim...?" -deyə, yavaş-yavaş ayılır. Dünən gecə sərxoşluqda eşitdiklərini anımsamağa çalışır:

- "Mələkə, Vahid, Sadıq, Məynəşim, Əsğər, Ərqiş, Məqsud...Ey vay...xatirələrim...! Hə..., otağa girən Teymurmuydu! Hara getdi bə o?"

Yerindən fırlanır. Ucadan danışaraq, düşünür. Sağ-soluna baxır. Işıq düyməsini tapmaq üçün korluq çəkir. Tapıb, ışığı açır. İlkyol gördüyü bir otaq! Qorxur!

- "Yenəmi yuxu görürəm." -deyərək, divarlara baxır. Pərdələri çəkdiyində, günəşin ışığı otağa saçır. Önündəki divarda çərçivələnmiş üç ağ-qara foto! Sağda Mənsur, solda Məqsud, ortada isə, Əsğər...

- "Dəlirəcəyəm. Dəlirməkdəyəm! Deyil, deyil, dəlirmişəm."

Qapı çalınıb, yenə Teymur içəri girir.

"Teymuru hardan tanıyıram mən? Hə! Yuxuda gördüyüm Teymurmu?"

- "Hamamı qızdırdım. Yuyunmaq istirsiz?"

- "Hə!"

- "Mən sizə hamamı görsədim."

Hamama doğru yürüyürlər. Yuyunub çıxır. Onlar qəynanaltıya onu gözləyirlər. Teymurun qarşısında oturur.

Məmməd çayları süzür. Çaysını şəkərləyib, bir qurtum almadan:

- Mələkəylə görüşmək istəyirəm.

Susquntu içrə, istəkan-nəlbəki səsindən bəşqa kimsədən səs çıxmayır. Məmməd, nəlbəkisindəki çaysını çalxayaraq, pürlədikdə, iki dişinin boşluğunu gizlədəbilməyir:

- Siz çıxdız getdiz. Biz də qaldıq bu cəhənnəmdə. Minnərcən insannarımız malladonu geyinmiş bu fas qurumsağın işkəncəsiynən öldürüldülər. Öldürəbildiklərini öldürdüb, qalanları da dəli etdilər... Bax! - ağzını açır, deyir:

- Bax! Ağzımda dişim də qalmadı. Yeddi il zından çəkdim. Mənim dərdimdən yazıq anam da öldü!... - sözünü qurtarmadan gözləri doluxur:

- Siz bu qəbristannıqdan qaçdız! - ucadan ağlamamaq üçün yeniləyir:

- Siz bu qəbristannıqdan qaçdız...!

Sözlər dilindən deyil, gözlərindən damır sankı! O, onların gözlərinə baxmadan:

- Mən bunların hamısını bilirəm! Mənim amacım ancaq Mələkəylə görüşməkdir. Özü də bugün.

- Mələkəylə görüşməsən lap yaxçı olar. - Teymur deyir.

- Mələkə heç kəsinən görüşməz. -Məmməd biraz acıqlı artırır.

- Mənim gəldiyimi bilsə Mələkə, elə indi durub, bura gələr!

- Bəs onda, mən Mələkeynən danışmalıyam. - yenə Teymur deyir.

- Mələkənin nəyi ilə danışacaqsan? Özün deyirsən, ayağı yerdə deyil, göylərdə uçur.

- Ona görə deyirəm da. Acıqlansa, kimsə qabağını alammaz. Yan-dörəsinə keşmax olmaz!

- O mənim boynuma. Sən məni onun evinə apar, özün də çıx get!

Teymur, Məmmədə baxır. Məmməd:

- Mən bilmərəm! - deyə çiyin atır.

- Oldu! - Teymur söyləyir.

- Sağ ol! Sağ olun! Yaxçılıqlarızı heç unudmayacağam. Onlar ikisi də gülürlər. Ara-sıra gülmələrinin səbəbini heç anlayabilməyir o. Mələkənin də mimiklərini anlamağa, korluqmu çəkəck?

Qəynanaltıdan sonra, sağ-soluna boyun çəkdiyində:

- Bir şey axtarırsan? - Teymur soruşur.

- Sigaretimi axtarıram.

- Dünən gecə sigaretləri sovurduq. - Sarışın artırır.

- İndi gedib, alıb, gətirrəm. - deyə, Teymur ayağa qalxmaq istədiyində:

- Gərəyi yoxdur. Eşiyə çıxarkən yolda alarıq.

- İstisən çıxasan eşiyə? - Məmməd soruşur.

- Hə! Mələkəyə getməyəcəyikmi?

- Mən ki gedmiyəcağam! Siz özüz bilərsiz!

- Sən ona darıxma! Biz ikimiz gedacax. - deyib, Məmmədə baxaraq, ikisi də gülürlər. Gülüşləri onların həngli bir çığırtını çalır, sanıram. Onların gülmələri, adamlar

tərəfindən anası öldürülmüş bir qurd yavrısını gözümün önündə oynadır. Onlar güləndə bənizləri, -özləri bilmədən- qayğılanır. Alınları qırışlanıb, -özləri istəmədən- gözləri çuxurda bir ışıq quyunu andırır mənə...

O, Teymurla birgə Mələkəyə gedəcəyinin sevincini, onların qayğılı çığırtılarında unudur...

## 12

Teymurla o, küçə başında, kartonüstü sigaret satan yaşlı bir kişidən, iki qutu sigaret aldıqdan sonra, küçənin sağında əyri park edilmiş, taksı yerinə qullanılan, 1965lərdən "talbut" firmasının qalıntılarından bir maşına minirlər. Teymur:

- Azəri! - deyir sürücüyə. Sürücü ayağını gaza basaraq:

- Azərinin harası? -soruşur.

O, sürücünün başqa bir ağızda danışdığını anladıqda, tanıdığı o ləhcənin ləzzətini dadmadan, Teymur sürücünün sorğusuna:

- Siz gedin, mən diyərəm. - cavab verib, açdığı sigaret qutusundan sürücüyə də buyur edir.

O,

- Haralısınız bəy! - soruşduğunda, sürücünün qulaqları şaxlanır. Dönüb, Teymurun sağında oturan ona baxır. Əl-ayağını itirmişcəsinə:

- Ərdəbilli! -deyir.

- Ərdəbil ağzının həngini çox sevərəm! Təbriz ləhcəsində, bir incə gülməcəlik çınğınlansa, Ərdəbil ağzında, hüzünlü bir qoçaqlıq dingillənər. O çınğıltıyla bu dingiltini mən bir təbrizlinin, bir ərdəbillinin otur-duruşunda belə, görürəm.

Ərdəbil sözü ağzında quruyan sürücü, bir daha dönüb, onun bənizinə diqqətlə baxaraq:

- Bakılı...sızz?

O, onun çaş-başlığını qanmışcasına:

- Yo! Budu buralıyam. Şah İsmayıl Xətayının Şəsəvən Qızılbaşlarındanam. On beş ildi ki, mən öz ağzımda danışmeyiməm. Şəsəvən ləhcəsi yadımdan çıxmışdı. İndi burda, öz ağzımda danışmağa başladım.

- O dildəki sən danışdın, mən dedim bə sən otaylısan...! Sözlərindən mən, heç başçıxadammadım ey!

- Yox canım. Mən siziy burdakı hamı ləhcələriyizi, ağızlarıyızı bilerem. Bu bizim təbrizli Teymuru gürerey? O bilə danışer:

"Siz gəlmişdüüüüz, biz bilməduuuuux daduuuş!"

Ərdəbillinin gülməkdən geçindiyini görən Teymur, gülməyə başlamaq istədiyində,

- Bə sən nəyə gülmerey? - gülərək, Teymura deyir.

Maşınların tüstüsündən ac qarnını doyuran o, sürücü, Teymur gülürlər. Sağdan-soldan geçən otomobillərə, düdüklərinə aldırmadan danışmağa qızışmışlar!

- Duy, duy göyüm! Sən də mını bilirsən:

"İffət xala, ağa Məhəyyəmin ütü dükanına girdiyində, Fərzin paltar ütüləməkdəymiş. Ağa Məhəyyəm də yuxarda tikiş tikirmiş. Fərzin İffət xalanın qapıdan girdiyini görər-görməz, "Səlam İffət xaya!" demədən:

- İfət xaya, Cıyığın vaysa, vey məhəyyəm tihsin! -deyib, üzünü yuxarıya tutaraq:

- Məhəyyəm, Məhəyyəm, İffət xayam gəydi! Göy ciyiği vaydı, al tih! - söylədiyində, İffət xala, öz-özünə, düşünərək:

- Vay dədəm vay! Poxu çıxdı! - deyə, dükandan qaçmış. Sonralar bir gün o, İffət xanımı İnqilabdakı çadıralı qəhbələrinən gördüyünü söyləmişdi!"

Onlar gülməkdən geçinirlər. Teymur küçələrin başında yazılan adları oxumaq üçün gözyaşlarını əlinin dalıyla silir! Dar bir küçənin sağında, sürücünün durmasını söyləyən Teymur, əlini cebinə uzadmaq istədiyində o, pul cüzdanından bir beşyüzlük çıxarıb, sürücüyə uzadır:

- Buyurun bəy! Sizinən tanış olmağıma çox sevindim ey.

- Mən də çox sevindim ey!

Teymur əlini cebindən çıxarıb, qapı dəstəsinə yapışdıqdan sonra:

- Yetişdux ağa, sağ olasız! çox sağ olasız! - deyir. Sürücü yana park etdikdən sonra, onlar  enib, dar küçəyə girirlər.

Barmağıyla Teymur bir qapını göstərərək:

- Mələkə xanım da burada oturar. - söyləyir.

- Burada təkmi yaşayır?

- Onun daha bir kəsi qalmadı ki! - deyib, qapını tıqlayır Teymur.

Teymurun arxasında özünü gizlətməyə çalışan o, ürəyinin döyünməsini eşidir. Qapı açılmadan, onun çəkib, getməsini istəyir. Söyləməyə ancaq utanır.  Teymur bir daha qapını çalır.

- İstərsən... sən... get...

Qapı açılır.

- Sələm xanım! Kefiz necədi? -deyə, salamının cavabını almadan, bir suç işləmişcəsinə:

- Hələ özümnən bir  qonaq da gətirmişəm! Bəğiş...

- Xoş gəldiniz! Buyurun! - gülərək, onların gəldiyini bilirmişcəsinə, qonağın kim olduğunu belə sormadan, buyur edir.

Çaş-baş qalan Teymur, ona yol açmaq üçün, yana çəkilir. O salam verib, vermədiyini ayırt edəbilmədən, qapıdan necə içəri girməsinə çaşırır. Üzünü, qapını örtmək üzərə olan Mələkəyə tutan Teymurun danışıqlarını yaxçı eşidəbilməyir.

İndi o, başını yerə tikmiş. Onu qaldırmaqla yuxudan ayılacağına ınanır sankı. Qapının qapanış səsindən ayılır. Teymur sağollaşıb, getmiş. Mələkənin gözünə, qaşlarına, üzünə, bənizinə, döşünə, göbəyinə... baxmaq istəyir. Başarabilməyir ancaq. Gözlərini ayaqlarına tikib, yerindən tərpənəmməyir. Əllərinin iki ağır yük olduğunu duyur. Necə olub olacağına çaşmış. Təkcə gözlərini qımıldada bilir. Mələkənin arxasındakı bağçanın çiçəklərini saymağa çalışdığını anladığında, dodaqları gülümsənir. Vargücünü toplayıb, çiçəklərdən gözünü alır. Başını qaldırır. Ansızın gözləri Mələkənin gözlərinə çarpır. Bir qırpımmı? Deyil! Gözləri zamansızlığa çarpır. Qaçırdır baxışını Mələkənin baxışındakı zamansızlıqdan.

- Xoş gəldin! - deyir Mələkə.

"Xoş gördüm!" deyəcəyinə, Mələkənin dodaqlarına baxır. Nə bir qan damlası gözlərindən dodaqlarına doğru axmaqda, nə də dodaqlarından damlalar əngine doğru süzülməkdədirlər.

Mələkə pillələrə doğru yeriyərək:

- Sənə də bir çiçək əkmişdim. Sənin öldüyünü sanmışdım. - söyləyir gülərək.

- ...

Mələkə pillələri çıxıb qapının önündə onu gözlərcəsinə, durur. O isə, ayaqlarını tərpədəbilməyir. Sağındakı havıza baxır. İki qırmızı, bir ala balıq ağızlarını çömçələdə-çömçələdə havız suyunu əmirlər. Mələkənin qapıdan otağa girdiyini, bir an gözünü balıqların ağzından alıb, başını qaldırdığında görür. Dərin bir nəfəs alır. Bağçaya baxır. Göy, qırmızı, açıq qırmızı çiçəkləri saymağının səbəbini anlayabilməyir. Dönüb havız başına gedir. Suyu açıb sərinləşəndən sonra, avıclarını dolduraraq, üzünə çırpdırır. boğazını isladır. Qulaqlarının ardını islaq barmaqlarıyla sığayır. "Deyil! Yuxu deyil! Ayığam! Mələkənin evindəyəm! On addımlığındayam onun! Beş qaldırım, bir qapı... Məynəşim!" - deyə, ayaqları özözündən çözülür. Pillələrə doğru yeriyir. Pillələri çıxır. Otağa girir. Ayaqda, ayaqlarının xalçaya yapışdığını duyur. Otaq qapısının qarşısında Mələkə bağdaş bağlayıb sigaret çəkir.

"Beləsinə susub onunla danışmazsam, acıqlandıraram onu. - düşünərək, qıfıllanmış dilini açmağa çalışır.

- Çox acı çəkdin! ...Demə ...?

- Acımı? O nədir? Acımı dedin? Buyur otur otdaş sevgilim! Acı bir çeşit daddır! Çəkdiyim acıdanmı danışmağa gəlmişsən? - ucadan gülərək, "Gülməyi unudmaq acısının dadını duydunmu heç?

O, cavab vermədən, önündə oturur. Məmmədlə Teymurun gülüşləri qulağında qıncışır. Otaqdakı susquntu

boğazını sıxır. Bir şeylər söyləmək istəyir. Beyni bom-boşdur sankı! Nə deyəcəyini belə bilməyir. Düşünməyə çalışır. Düşünməyə başarmadığını belə, anlamayır daha! Barmaqlarıyla oynayır. Mələkənin ona baxdığını duyduğunda, başını qaldırıb, ona baxmadan, gözünü xalça üstündən sürütdəyərək, Mələkənin sol əlinə baxır gizlicə. Mələkənin incə uzun barmaqları, kövrək dırnaqları, əlinin dalındakı incəcik damarcıqları, onun içində yeni duyğular oluşdurur. Susquntu beyninə cırmaq çəkir. Quşq olmuşcasına partlamaqda olduğundan, qorxuya bürünür. Ansızın:

- Sənin üçün gəldim! -deyir

- Deyil! Sən gəlmədin! Kəndova köhlənlərində sənə yedirdiyim Aşıq Quyu otları, bağışladığım Göy bitiyi səni Məynəşinlə dölləşməyə gətirdi!

O, Mələkənin sözlərini dinləməyirmişcəsinə, ansızın gözlərini onun əlindən qoluna, illər boyu daranmamış, dolaşıq saçlarına zilləyir. Mələkə, büyücü bir ılan baxışı kimi, onun baxışını avlayıb, çəkir gözünün dibinə. O, gözlərini qurtarmağa dirənsə də, qurtarabilməyir. Mələkənin gözlərində gözlərinin quyulaşmasını, boyalanmasını, qaradan açıq mora, mordan tutqun yaşıla, göyə çöndüyünü, üzərcəsinə görür! Yerçəkiminin ötəsində üzməkdə olduğunu ayırt edəbilir artıq. Orada o, nə düşünə, nə danışabilir!

Mələkə isə, danışır, bağırır, gülür, ağlayır, acıqla yolur onun saçlarını. Quyulaşmış göm-göy gözləri, birdən-birə ışıqlanır...

O, ışıq içrə indi, bir qapıya doğru üzməkdə olduğunu görəbilir! Yataq otağında gördüyü Mələkə, sağ əlini ona

doğru süzüldürüb onun gözlərini qaralamağa çalışır. O, qollarını gərib Mələkəyə doğru fırlanmaq istəyir. Bağırmaq istədiyində, bağırtısından ayılacağına qorxur. Gözü Mələkənin qırmızılaşır, göyləşir! O, gərilmiş əllərlə oturduğu yerdən özünü Mələkəyə doğru yüngülcəsinə qalxar sanır. Əllərini onun əllərində istəyir. Bir tərpənişlə qarşısında oturan Mələkəyə doğru sıçrayır. Boynuna sarılır. Yanaqlarını, boynunu, dodağını, kipriklərini dəlicəsinə yalayır...

Çırım-çılpaq gövdəsini, vargücüylə sıxır gövdəsinə! Əliylə göbəyini ovuşdurur. Qıvrılıb döşlərini ağzına alıb əmir...! Qan-tər içrə hovuzda balıqlarla üzərcəsinə, dişləşə-güləşə uçuşurlar...!

O, nəfəslərinin xırıltısını eşitdikdə, ayılır. Mələkənin gözlərinə baxır. Pıril-pırıl parlayan baxışlarının içində uçmağını görür. Mələkə kirpik çalmadan, cürü barmağıyla onun qaşından süzülən tərləri incədən silərək, onu özünə doğru çəkib, gözlərini öpür. Gözləri onun yuxudan ayılarcasına, kiprikləri incədən çırpınır. Gözlərinin uçurtmatək göylərdə üzməyini sanır. Kiprikləri incəcik qamaşır. Mələkənin səsini ancaq, daha eşidəbilir:

- Yaxınlaşma mənə! Al! Sənin olsun! Onu qoru! Sənin döləkçəni mən, uşaqlığımda böyüdəcəyəm! Arxayın ol otdaş sevgilim! Darıxma! Doğulacağını görməsən də, eşidəcəksən gülüm!

Dərin bir yuxudan ayılmağını diləmədiyi üçün, Mələkənin sözünü kəsib, çığırır...

## 13

**O**nun çığırtısı, incə iti bir ğığılış tona çönərək, qulağından beyin damarlarına toxunur. Onları titrəşdirib qığılcım çaxdırar-çaxdırmaz, oturqacından yıxılır! Bilgisayar monitorunun ışığı gözlərini yaxmış sankı! Gözləri sızlayır! Yıxıldığı yerdən eşiyə baxır. Yer sökülməkdədir. Günəş, azqala doğacaqdır!

O:

- "Ax!" - deyə yerdən qalxıb, bilgisayarın önündə durur.

Mizin üstündən şarabını götürüb başına çəkir! Sonra şüşəni mizin üstünə qoyub, gözlərini yumur. Şapbadan onu qamrayıb kablolarını elektirik axımından çözməyi düşünmədən, qaldırıb pəncərədan aşağıya atır. Dərin bir nəfəs almaq istədiyində, öskürüklər boğazını incidir! Bilgisayar monitorunun partlayışından, qonşular pəncərələrini açıb eşiyə baxırlar...!

O artıq, nə qılacağını bilir sankı! Balkon qapısını qapadmadan, dönüb bilgisayar mizindən tütününü götürür. Bir sigaret eşir. Qəynanaltını yeyəndən sonra, alış-verişə gedəcəyini düşünür. Yoldaşı günbatana yaxın Utrextdən Kölnə doğru hərəkət edəcək. Bir film çəkmək üçün, Azərbaycana uçacaq.

Sigaretini alışdırıb pəncərəyə baxır. Baxa-baxa, pəncərə camındakı turuncso günəbaxan çiçəyinin kölgələndirəbilmədiyi ışıqlar içrə dönür! Dönüşmələr içrə, saqqalında pendir-çörək gizlədən Sadıqla dəliso Mələkəsini beyninin damarlarında dönüşdürür. Onları, Nazlıçayının

uşqunluğunda döndərə-dönüşdürə, bir sarışın qaplanın önündə fırlana-fırlana oynayan qızın dişilik duyğusunu içinə yaydırır! Dönüş sevinci içrə sigaretinin tüstüsünü ciyərlərinə çəkir! Meyxoşcasına Pəncərədən eşiyə baxır. Işıq eşiklə ışıklaşaraq, içiçləşir! Çəmənlərin üstündə bilgisayarın paramparçalığını gördüyündə, bilgisayardan qurtulduğuna arxayın olur! Azərbaycanda çəkəcəkləri Mamacçları gözünün önündə oynaşdırıb, dönüşlərində onları yaxalayır. Onlarla dönmək istəyir.

Yerin sökülməsi, gözlərini parladır! Birdən-birə telefon səsindən hürkünür! Otağın sol bucağında, bala mizinin üstünə qoyduğu telefona baxır. Heç eşidmədiyi bir səs eşidircəsinə, telefona yaxınlaşır:

"Bu qara telefon hardan çıxdı?" soruşur. Dırıllayan telefon beyninə aman verməyir. Səsini kəsmək üçün də olsa, əyilərək, dəstəyini götürüb qulağına yaxınlaşdırır:

- Hallo!... Hallo...! Ich Weiss, dass du da bist! Bitte! Antworte bitte! Wo warst du denn gesternnacht! Dein Freund hat mich angerufen! Pass auf gülüm! Bevor du nach Azərbaycan fliegst, muss du deine bürokratiscnen sachen erledigen. Sonst... meine Blüm...

- Əlo!... Əlo...! Sənin orada olduğunu bilirəm! Lütfən! yanıt ver lütfən! Haradaydın bə dünən gecə! Dostun mənə zəng eləmişdi. Dinlə məni gülüm! Azərbaycana uçmadan, kağaz işlərini sən baxmalısan! Yoxsa...mənim gülü...

Dəstəyi yerinə qoyaraq, bağlantını kəsir.

## Vali Gözətən'in Kitapları

1

Yeni Dalğa Sonrası

2

Hə

3

Q. Q. Biçimlər

4

AyAz

5

SoNdÖkÜm

6

Mamacç

7

Son Köçəri

**Vali Gözətən** Güney Azərbaycan Şahsevənlərinin Sava bölgəsində yaşayan Yarcanlı oymağında 1964`cü ildə anadan olmuşdur.

Yaşam öyküsündə: "64 doğumluyam. İndiyə dək bircə xocam, öyrətmənim olmadı. Oldu! Fars bir ``öyrətmən``im oldu. Yeddi yaşında birinci gün oxula getdiyimdə, Farscanın nə olduğunu bilə bilməyirdim (bizdə Tat deyərdilər farslara. Bunu da sonralar anladım). Birinci gün həyətdə taytuşlarımla (Sınıfdaslarımla) oynarkən, doğal olaraq, Şahsevənlərin ``yoğun fıqqasıyla`` Türkcə danışırdıq... demə Fars ``öyrətmən`` bizi yaxından güdürmüş. Mən nəsə uşaqlara anlatırdım. Ansızın ildırım beynimdə çaxmış kimi yerə yıxıldım...

Gözümü açdığımda, bayıltıdan uyuşmuş gövdəmi qirqumun (asfaltın) üstündə buldum. Kimsəni çevrəmdə görmədim. Uşaqlar sınıflara getmişdilər. Ölümcül bir durumda ayağa qalxmaq istədiyimdə, şalvarıma... etdiyimi anladım. Nəysə, özümü evə yetirdim. Evdəkilərdən gizlin, tuvaletdə ``kəndimi sildim``, üstümü dəyişdim... ana atam inciməsin deyə, oxula döndüm...

İl bitdi... yaz tətilləri başladı... Şahsəvən uşaqlarını "başıma yığdım"... ətəklərimzdə daş... Oxulun qocaman camlarını qır ha qır... bircə cam sağlam buraxmadıq...

O gün bu gün... "öyrətməndən, oxuldan... içimdə bir nifrət yarandı...

On üç yaşına varınca yazmağa başladım... kimsə mənə öyrətmənlik etmədi... Nə öyrəndimsə, kendi-öz`ümdən öyrəndim..." yazır...

Vali Gözətən doqquzuncu sınıfda Fars rasist rejiminə qarşı devrim başladığında əski nifrəti yenə də içindən püskürərək... polisləri daşa basmağa, təkərləri odlamağa can atmışdı.

Devrimdən sonra, onbirinci sınıfı oxurkən düşüncələrindən dolayı oxuldan atılmışdı. Olayı ana atasından gizli saxlamağın yolunu savaşa getməkdə bulmuşdu. Savaşda Sadıq adlı yoldaşı öldürüldükdən sonra (Mamacç romanında onun anılarını yazmışdır), yaşadığı Qum kəntinə döndüyündə yenə də oxula alınmamışdır.

1984`cü ilin sonlarına dəgin üç yol tutuqlanmış, 1995`də Türkiyəmizə, oradan Almanyaya yerləşmişdir...

Vali Gözətən birinci kitabını ana dilində 1989`da Parisdən döndükdən sonra yazmağa başlamışdır.

Vali Gözətən 1992`dən 1994`ə dək Almanyanın Köln şəhərində Cocuq Bağçasında eyitmən olaraq çalışarkən "Bayquş" dərgisini də yayımladı...